QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 026 (5498) 9 **fevral** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalqın alternativsiz lideri!

*Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*

Səh 2



8

Siyavuş Novruzov: “İlham Əliyev alternativsiz liderdir!”



8

Novruz Məmmədov: “Azərbaycan xalqı İlham Əliyevə inanır”



11

Ermənistan Azərbaycanda keçiriləcək 11 aprel seçkilərindən qorxur



# Xalqın alternativsiz lideri!

## *Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*

***Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) VI qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, YAP-ın 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib. Partiyanın sədri, Prezident İlham Əliyev öz nitqində bildirib ki, bu qurultay ölkəmizin iqtisadi-siyasi həyatında əlamətdar hadisədir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir:***




*"Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir"*



Partiyamızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir, 700 mindən çox üzvümüz var və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar. Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir.

Keçən ilin noyabrında biz partiyamızın 25 illik yubileyini qeyd etmişik. Bu 25 il ərzində partiyamız uğurlu və şərəfli yol keçmişdir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanmışdır və bu 25 il qələbələr salnaməsidir. 1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyamızın təsis konfransı tarixi hadisə idi və 25 ildən sonra biz bunu əyani şəkildə ölkəmizdə mövcud olan vəziyyətdə, əldə etdiyimiz uğurlarda görürük. O vaxt partiyamızın yaradılması dönüş nöqtəsi idi. Əgər o vaxt bu partiyamız yaradılmasaydı, bilmək olmazdı ölkə hansı istiqamətdə inkişaf edəcəkdi. Çünki o vaxt ölkəmizin qarşısında çox ciddi problemlər durmuşdu. Demək olar ki, Azərbaycan, onun gənc müstəqilliyi təhlükə altında idi. O vaxt hakimiyyəti 1992-ci ildə qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat cütlüyü ölkəmizi uçuruma aparırdı. Azərbaycanda iqtisadi tənəzzül, sənayenin iflic vəziyyətə düşməsi, siyasi, iqtisadi, ondan sonra da hərbi böhran demək olar ki, müstəqilliyimizi şübhə altına alırdı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz Liderinə üz tutdu və partiyamızın yaradılması, əlbəttə ki, burada həlledici rol oynamışdır. Onu da biz yaxşı xatırlayırıq və əlbəttə partiya üzvləri bunu bilir, Azərbaycan ictimaiyyəti də bilir ki, o vaxt hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş hakimiyyət imkan verməmişdi ki, partiyamızın qurultayı Bakıda keçirilsin. Fəallar, vətənpərvər insanlar Naxçıvana gəlmiş və Heydər Əliyevin sədrliyi ilə partiyamızın yaradılması haqqında bəyanat verilmişdir. Ondan bir neçə ay sonra xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəldi və ölkəmiz inkişaf yoluna qədəm qoydu. AXC-Müsavat cütlüyü tərəfindən başlanmış vətəndaş müharibəsi dayandırıldı, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, qayda-qanun yaradıldı, milli vətəndaş həmrəyliyi üçün əsas yaradıldı, azərbaycançılıq ideologiyası bəyan edildi və bu gün də bizim əsas ideoloji dayağımızdır. Ölkə Konstitusiyası qəbul edildi, iqtisadiyyatda, siyasi sahədə ciddi islahatlara start verildi, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi və ölkə ilə bağlı həqiqətlər dünya birliyinə çatdırıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yolu ilə gedir və inkişaf üçün əsas şərt - sabitlik tam bərqərar olmuşdur. Çünki sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Məhz o illərdə - Ulu Öndər hakimiyyətə gələndən bir il sonra "Əsrin kontraktı" imzalanmışdır. Bu, bu gün də və gələcək illərdə də ölkə iqtisadiyyatı üçün müstəsna rol oynayan kontraktdır.

Ardı Səh. 3

# Xalqın alternativsiz lideri!

*Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*

Əvvəli Səh. 2




Keçən ilin sentyabrında Ulu Öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzində kontraktın 2050-ci ilə qədər uzadılması haqqında qərar verildi. Görün, bu kontraktın nə qədər böyük əhəmiyyəti var ki, artıq yarım əsrdən çox müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir.

Azərbaycana investisiyalar qoyulmağa və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. 2003-cü ildən sonra da Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir.

2003-cü ildən bu günə qədər keçən dövr haqqında geniş danışmaq istəmirəm. Mən müntəzəm olaraq həm görülmüş işlərlə və həm də planlarla bağlı Azərbaycan ictimaiyyətinə məlumatlar verirəm. Sadəcə onu demək istəyirəm ki, bu illər Azərbaycanda sürətli inkişaf dövrü olmuşdur və Azərbaycan dünyada analoqu olmayan iqtisadi templərlə inkişaf etmişdir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmişdir, 2003-cü ildə və ondan sonrakı illərdə verilmiş bütün vədlər həyatda öz əksini tapmışdır.

Bu gün mən gələcək planlar, gələcəklə bağlı fikirlər haqqında öz sözlərimi sizinlə və Azərbaycan ictimaiyyəti ilə bölüşmək istəyirəm ki, biz Azərbaycanı gələcəkdə daha da güclü dövlətə çevirmək üçün hansı işləri görməliyik.

Daxili siyasətlə bağlı. Bizim son illər apardığımız siyasət özünü tam doğrultdu, Azərbaycanda sabitlik mövcuddur. Qeyd etdiyim kimi, sabitlik hər bir inkişafın əsas şərtidir. Biz görürük ki, son 5-6 il ərzində dünyanın müxtəlif yerlərində, bizim regionumuzda çox ciddi, narahatedici proseslər gedir. Qanlı toqquşmalar, müharibələr, vətəndaş müharibələri, ölkələrin bir-birinin işinə kobudcasına qarışması, hərbi müdaxilələr - bütün bunlar bizim gözümüzün önündə baş verən məsələlərdir. Biz görürük və bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bu, xalqlara, ölkələrə böyük bəlalar, faciələr gətirir. Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Çünki bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.

> "Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir"



Ölkəmizdə ictimai asayiş qorunur, kriminogen durum çox müsbətdir, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bunu Azərbaycan vətəndaşları yaxşı bilirlər, ölkəmizə gələn çoxsaylı turistlər görürlər. Təhlükəsizlik və sabitlik bizi fərqləndirən müsbət amillərdir.

Ölkəmizdə, eyni zamanda, bütün azadlıqlar təmin edilir və edilməlidir, bu da bizim siyasətimizdir. Gələcək illərdə də demokratik inkişafla bağlı yeni addımlar atılacaqdır, siyasi islahatlar davam etdiriləcəkdir.

Ardı Səh. 4

# Xalqın alternativsiz lideri!

## *Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*

Əvvəli Səh. 3




Son illər ərzində bu istiqamətdə gözəl nəticələr əldə edilib və bu, daimi prosesdir. Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik. Bu gün də vəziyyət çox yaxşıdır, müsbətdir. Bütün azadlıqlar - söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir. Mən tam əminəm ki, əgər biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirmək istəyiriksə, - biz bunu istəyirik, - mütləq siyasi və iqtisadi islahatlar paralel xətlə davam etdirilməlidir.

Azərbaycanda vicdan azadlığı tam təmin edilir və ediləcəkdir. Bundan sonra da Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkə kimi uğurla inkişaf edəcək. Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir. Bu, ölkəmizin uğurlu inkişafı üçün əsas şərtlərdən biridir, vətəndaş həmrəyliyi, vətəndaş sülhü üçün əsas şərtdir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdurma, anlaşılmazlıq olmamışdır, bundan sonra da olmayacaq. Bu, dövlət siyasətidir və bu siyasət Azərbaycan xalqı tərəfindən tam şəkildə dəstəklənir. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verir.

> “Bütün azadlıqlar - söz, mətbuat, sərbəst toplaşma azadlığı tam təmin edilir və ediləcəkdir. Bu, bizim prinsipial siyasətimizdir”



Mən xüsusilə bu məsələyə toxundum. Bu, bizim üçün adi haldır. Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkə daxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır. Təsadüfi deyil ki, məhz bizim təşəbbüsümüzlə Azərbaycanda bu mövzu ilə bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Bu il 10 illiyini qeyd edəcəyimiz “Bakı Prosesi” bu gün BMT tərəfindən yüksək qiymətləndirilir və dəstəklənir. Onun da təşəbbüskarı biz olmuşuq. Avropa məkanını müsəlman aləmi ilə yaxınlaşdırmaq istəyimiz böyük nəticə verməsə də, hər halda müsbət tendensiyalara təkan verir. Biz öz siyasətimizi bu istiqamətdə davam etdirəcəyik. Yenə də deyirəm, ölkə daxilində hər hansı bir əlavə addımların atılmasına ehtiyac yoxdur. Ancaq biz bu şərəfli missiyanı beynəlxalq miqyasda davam etdirəcəyik.

Bizim xarici siyasətimizlə bağlı apardığımız xətt özünü tam doğrultdu. Azərbaycan bu gün beynəlxalq birlik tərəfindən çox böyük rəğbətə layiq olan ölkə kimi tanınır. Bizim dostlarımızın sayı artır, bizi dəstəkləyən ölkələrin sayı artır. Təkcə bir misalı gətirmək kifayətdir ki, biz bunu sübut edək, o da 155 ölkənin bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına üzv kimi dəstəkləməsidir. Bu, beynəlxalq aləmin mütləq əksəriyyətidir. Bu dəstəyi biz öz siyasətimizlə qazanmışıq. O siyasət ki, beynəlxalq hüquqa və ədalətə əsaslanır. Bu iki vacib prinsip həmişə bizim üçün əsas olub. Biz bu prinsiplərə sadiqik. Bu prinsiplər bütövlükdə beynəlxalq münasibətlərin tənzimlənməsində də üstünlük təşkil etməlidir.

Biz bundan sonra da beynəlxalq arenadakı rolumuzu fəal aparacağıq. Bizim bütün ölkələrlə qarşılıqlı hörmət və biri-birinin işinə qarışmamaq şərti ilə münasibətlərimiz qurulub. Bu münasibətləri biz möhkəmləndirəcəyik. Qonşu dövlətlərlə əlaqələrimiz daha da yüksək pilləyə qalxacaqdır. Mən buna əminəm. Çünki hazırda başladığımız və davam etdirdiyimiz iqtisadi və digər layihələr bunu deməyə əsas verir.

Müsəlman aləmində Azərbaycan çox böyük dəstəyə malik olan bir ölkədir. İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədaləti əks etdirən qətnamələr qəbul etmişdir. Baxmayaraq, müsəlman aləmində əfsuslar olsun ki, birlikdən danışmaq mümkün deyil, ancaq biz öz səylərimizlə bu birliyə aparan yolda çox fəal iş görürük. İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, “İslam Həmrəyliyi İli” elan edilməsi müsəlman aləmində çox yüksək qiymətləndirilib.

*Ardı Səh.5*

# Xalqın alternativsiz lideri!

## *Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*



Əvvəli Səh. 4

Bu gün hesab edirəm ki, müsəlman aləmində Azərbaycan müəyyən dərəcədə barışdırıcı, əlaqələndirici missiyanı uğurla icra edir. Biz bundan sonra da çalışmalıyıq ki, həmrəyliyi möhkəmləndirək, xoşagəlməz tendensiyalar səngisin.

Eyni zamanda, Avropa ölkələri ilə bizim yaxın münasibətlərimiz var. Keçən il Avropa İttifaqı ilə yeni saziş üzərində danışıqlar başlamışdır. Avropa İttifaqına üzv ölkələr bizim əsas ticarət tərəfdaşlarımızdır, əsas investorlardır. Əlbəttə ki, bizim siyasi, iqtisadi, enerji sahələrində əlaqələrimiz çox yük-

> “Bundan sonra da ölkəmizdə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayacaq. Bu, bizim böyük sərvətimizdir”

sək səviyyədədir. Bizim üçün də bu əməkdaşlıq çox önəmlidir. Çünki Azərbaycan müasirliyə gedən yoldadır. Biz inkişaf etməliyik, biz ən qabaqcıl standartları milli dəyərlərimizə uyğun olan şərtlə tətbiq etməliyik. Biz çox möhkəm milli köklər üzərində dayanmışıq və bu, bizim üçün əsasdır. Eyni zamanda, biz həmişə dünyaya açıq olmalıyıq və ən qabaqcıl texnologiyaları ölkəmizə gətirməliyik.

İndi hamı bilir ki, Azərbaycan prinsipial mövqedədir, müstəqil siyasət aparır. O siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir, o siyasət ki, bir çox tərəfdaşlar üçün də əlavə imkanlar yaradır. Beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizi uğurla



davam etdirəcəyik. Bütün mötəbər beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləyir. BMT, ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı - bütün bu aparıcı təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər. Beləliklə, münaqişənin həlli üçün siyasi əsaslar da qoyulub. Hüquqi əsaslar onsuz da var. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Heç bir ölkə bu qondarma qurumu tanımayıb və əminəm ki, heç vaxt tanımayacaq. Tarixi əsaslar da bizim mövqeyimizi gücləndirir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Bey-



nəlxalq təşkilatların qərar və qətnamələri həm hüquqi, həm siyasi əsasları möhkəmləndirir. Münaqişənin həlli ilə bağlı bizim mövqeyimiz üstünlük təşkil edir, xüsusilə indiki şəraitdə. Dünyanın müxtəlif yerlərində, eyni zamanda, Avropada separatizm meyilləri artır. Avropa da görür ki, separatizm nə dərəcədə təhlükəli meyildir. Biz isə təcavüzkar separatizmlə üzləşmişik. Ona görə bü-



tövlükdə münaqişələrlə bağlı dünyada gedən proseslər, yanaşma bizim mövqeyimizi daha da möhkəmləndirib. Təsadüfi deyil ki, keçən ilin noyabrında Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvəsində qəbul edilmiş qətnamə Şərq Tərəfdaşlığına üzv ölkələrin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini birmənalı şəkildə dəstəkləmişdir. Deyə bilərəm ki, ilk dəfə olaraq, bax, bu formada qətnamə qəbul edilmişdir. Bu, Ermənistan üçün növbəti zərbə, onların növbəti məğlubiyyəti idi və bizim növbəti qələbəmiz idi. Əslində bu, haqq-ədalətin növbəti qələbəsi idi. Ona görə bu müsbət meyillər güclənəcək. Biz, sadəcə olaraq, bundan sonra da öz siyasətimizi aparmalıyıq, aparacağıq. Ermənistanı daha da sıxışdırmalıyıq, sıxışdıracağıq və öz həqiqətlərimizi dünya birliyinə çatdırmalıyıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Biz heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaq. Biz, sadəcə olaraq, öz səylərimizi daha da artırmalıyıq və artırırıq. Əminəm ki, bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz ədalətli həllini tapacaq, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək.

Onu da qeyd etməliyəm ki, biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu isti-



qamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəki-



lir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

O ki qaldı, Ermənistana, indi hər kəs görür ki, bu ölkə öz işğalçılıq siyasətinin girovuna, qurbanına çevrilib. Biz onları demək olar ki, bütün beynəlxalq layihələrdən təcrid etmişik, bütün enerji və nəqliyyat xətləri onlardan yan keçir və bunu biz etmişik. Baxmayaraq ki, bu, o qədər də asan məsələ deyildi. Əfsuslar olsun ki, dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi və erməni pullarına satılmış bəzi siyasətçilər daim çalışırlar ki, Ermənistanı da bizim təşəbbüsçüsü olduğumuz layihələrin tərkibinə daxil etsinlər. Biz həmişə buna çox ciddi etiraz etmişik, təşəbbüsümüzlə həyata keçirilən layihələr Ermənistanı tamamilə kənarda qoymuşdur. Həm Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars layihələri onlardan yan keçmişdir. Bizim siyasətimizə görə, Şimal-Cənub Nəqliyyat Dəhlizi də onlardan yan keçəcəkdir. Biz bunu gizlətmirik. Baxmayaraq, bəziləri çalışırlar bizi ittiham etsinlər ki, biz onları təcriddə saxlayırıq. Bəli, saxlayırıq və saxlayacağıq. O vaxta qədər ki, torpaqlarımız işğaldan azad olunsun. Bu siyasət öz nəticələrini verməkdədir. İndi heç kim Ermənistana sərmayə qoymur. Çünki, birincisi, orada hakimiyyəti zəbt etmiş kriminal, korrupsioner, qaniçən rejim imkan vermir ki, sərmayə qoyulsun, əvvəllər qoyulan və ianə şəklində verilən bütün pullar rejim tərəfindən oğurlanmışdır. Digər tərəfdən, bazarın məhdudluğu və azalan bazar imkan vermir ki, ciddi investor oraya gəlsin və ixrac imkanları da çox məhduddur. Çünki ixrac üçün yollar olmalıdır, yollar olsa da, yenə də tam investisiya cəlb edilməsi üçün şərait yaratmır. Əlbəttə ki, bunu böyük dərəcədə edən məhz biz olmuşuq və bu siyasəti davam etdirəcəyik. Onların özlərinin son statistik məlumatlarına görə, keçən il ölkəni 40 mindən çox insan həmişəlik tərk edib və bu tendensiya hər il gedir və gedəcəkdir. Beləliklə, orada demoqrafik böhran yaşanır. Bizim səylərimiz nəticəsində Ermənistan siyasi, iqtisadi, enerji, nəqliyyat dalanına çevrilib və əlbəttə ki, bu ölkənin gələcək inkişafı çox qaranlıqdır. Biz isə öz



siyasətimizi davam etdirəcəyik və bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, siyasi imkanlarımızdan, hərbi gücümüzdən istifadə edib məsələni həll etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə də bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, nə üçün hərbi quruculuğa, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük. Həyat göstərdi ki, biz nə qədər düzgün siyasət aparırıq. Onu da qeyd etməliyəm ki, dünyanın aparıcı ölkələri də daim silahlanırlar və bu proses bir çox ölkələr üçün də xasdır. Biz isə son illər ərzində güclü ordu yaratmışıq. İndi bütün beynəlxalq reytinqlər də ordumuzun gücünü əks etdirir. Bu güc bizə imkan verir ki, istənilən vəzifəni icra edək. 2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır. Növbəti illərdə hərbi potensialın gücləndirilməsi üçün, ordu quruculuğu üçün nə lazımdırsa, o da ediləcək. Bizim güclü iqtisadi imkanlarımız var. Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu burada, bu məsələdə prioritetdir.

Ardı Səh. 6

# Xalqın alternativsiz lideri!

## *Yeni Azərbaycan Partiyasının Qurultayında partiyanın Sədri İlham Əliyevin prezident seçkilərində namizədliyi irəli sürülüb*

**Əvvəli Səh. 5**

Məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və mənzillərlə, evlərlə təmin edilməsi istiqamətində bundan sonra da uğurlu siyasət aparılacaq. Bu günə qədər 270 minə yaxın köçkün evlərlə təmin edilib. Bu il 20 minə yaxın, bəlkə də bundan da çox köçkünü biz yeni evlərlə təmin edəcəyik. Bu siyasət davam etdiriləcək. Torpaqlarımız işğaldan azad olunandan sonra biz bu gün erməni vəhşiləri tərəfindən dağıdılmış bütün şəhərləri, kəndləri yenidən quracağıq. Cocuq Mərcanlı kəndinin timsalında bütün dünya görür ki, biz buna qadirik, bunu qısa müddət ərzində edə bilərik.

Bir daha bütün dünya əyani şəkildə görür ki, Azərbaycan xalqı, köçkünlər bir amalla yaşayırlar. Tezliklə öz doğma torpaqlarına qayıtmaq arzuları var və hətta köçkün şəraitində doğulmuş, heç vaxt öz torpağını görməmiş uşaqlar, gənclər də bu arzu ilə yaşayırlar. Bu gün onların bir hissəsi artıq Cocuq Mərcanlıda, öz dədə-baba torpağında məskunlaşıb. Bu da Azərbaycan xalqının yenilməz ruhunu bir daha bütün dünyaya göstərir.

Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır. Əvvəlki illərdə də aparılmışdır. Ancaq son iki il ərzində daha fəal və daha səmərəli islahatlar aparılmışdır. Bu islahatlar imkan verdi ki, biz ağır vəziyyətdən, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində yaranmış vəziyyətdən çıxa bilək və çıxmışıq da. Bu gün ölkə iqtisadiyyatı öz templərini artırır. Növbəti illərdə islahatlar mütləq davam etdiriləcəkdir. İndi bəzi suallar səslənir və hətta beynəlxalq ekspertlər maraqlanırlar ki, indi neftin qiyməti bir qədər qalxıbdır, bəs bu, apardığımız islahatlara təsir edəcək, ya etməyəcək? Bəlkə siz indi islahatları o qədər fəallıqla aparmayacaqsınız. Qətiyyən belə deyil. Mən bir daha demək istəyirəm ki, neftin qiymətinin artması, sadəcə olaraq, bizim valyuta ehtiyatlarımızı artıracaq. Ancaq bütün hökumət qurumları elə işləməlidirlər ki, sanki bizdə neft amili yoxdur. Ona görə biz gələcək iqtisadi inkişafımızı qeyri-neft sektorunun inkişafında görürük. Neft sektoru, sadəcə olaraq, bizə əlavə maliyyə resursu yaradacaq ki, bu da öz növbəsində, bizim siyasi resurslarımızı da gücləndirir. Bu da təbiidir. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafını ancaq bu amillər - qeyri-neft sektoru, sahibkarlıq, idarəetmədə aparılan və aparılacaq islahatlar müəyyən edəcək. Ona görə iqtisadiyyatın şaxələndirilməsi, mütərəqqi beynəlxalq təcrübənin Azərbaycana gətirilməsi, maliyyə, fiskal siyasətində ən qabaqcıl texnologiyalardan istifadə etməyimiz inkişafımız üçün əsas amillər olacaqdır. Deyə bilərəm ki, bu siyasət artıq öz nəticəsini vermişdir. Keçən ilin iqtisadi göstəriciləri göstərdi və sübut etdi ki, biz düzgün yoldayıq. Qeyri-neft sektorumuz, iqtisadiyyatın qeyri-neft sektoru 2,7 faiz, sənayedə qeyri-neft sektorunun artımı 3,7 faiz, kənd təsərrüfatı 4,1 faiz, valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır. Bu ilin yanvar ayının nəticələri də mənə məruzə edildi. Bu barədə də demək istəyirəm. Bu, göstərir ki, mən əvvəlki aylarda dediyim kimi, 2018-ci il sürətli inkişaf ili olacaqdır. Beləliklə, yanvar ayında Azərbaycanda ümumi daxili məhsul 2 faiz, qeyri-neft iqtisadiyyatımız təxminən 4 faiz, sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 8,7 faiz artıb. İnflyasiya birinci ayda 5,5 faizdir, əhalinin pul gəlirləri 11 faizdən çoxdur. Yəni, əhalinin gəlirləri inflyasiyanı iki dəfə üstələyir. Bu ilin yanvar ayında bizim valyuta ehtiyatlarımız 2 milyard dollar artıb və bu gün valyuta ehtiyatlarımız 44 milyard dollar təşkil edir. İlin əvvəlidir. Mən əminəm ki, 2018-ci il sürətli inkişaf ili olacaq və ondan sonrakı bütün illərə çox güclü təkan verəcək. Kənd təsərrüfatında, sənaye sahəsində də indi həyata keçirilən layihələr tezliklə, bir-iki il ərzində öz bəhrəsini verəcəkdir.

Biz indi nəhəng enerji layihələrini icra edirik. Bu da qarşıda duran əsas vəzifələrdən biridir. Biz Cənub Qaz Dəhlizini vaxtında təhvil verməliyik, bunu edəcəyik. Bütün maliyyə resursları təmin edilib, həm Azərbaycan, həm beynəlxalq banklar tərəfindən. Müəyyən yubanmalar olmuşdur, onlar da aradan götürüldü. Çünki Cənub Qaz Dəhlizi həm bizim üçün, həm də Avropa üçün strateji əhəmiyyətə malik olan bir layihədir. Azərbaycan öz liderlik missiyasını uğurla icra edir. Biz bu tarixi layihəni - 7 ölkəni, qitələri birləşdirən, 3500 kilometr məsafəsi olan və dənizin altından, dağların başından keçən qaz kəmərini uğurla həyata keçiririk. "Şahdəniz-2" layihəsindən yaxın zamanlarda qaz çıxarılacaq. Onu da deməliyəm ki, Cənub Qaz Dəhlizi, yəni, qaz kəməri artıq qazla təmin edilir. Bu, tarixi layihədir və ölkəmizin uğurlu, dayanıqlı inkişafı üçün əsas resurs bazasıdır.

Qeyd etdiyim kimi, "Azəri-Çıraq" yatağının istismarının uzadılması haqqında da tarixi qərar qəbul edilib. Ona görə bundan sonra da neft-qaz sektorunda Azərbaycan uğurla inkişaf edəcək. Ancaq yenə də deyirəm, gələcək fəaliyyətimiz üçün bu, bizdə bir rahatlıq hissi yaratmamalıdır. Biz fəal işləməliyik, qeyd etdiyim kimi, bu, sadəcə olaraq, bizim üçün əlavə maliyyə və siyasi resursdur.

Bu gün biz beynəlxalq arenada bütün məsələlərlə bağlı öz sözümüzü deyirik. Nəyə görə? Əlbəttə ki, güclü siyasi iradəyə görə, cəsarətli siyasətə görə, amma, eyni zamanda, maliyyə imkanlarımıza görə. Əgər bu imkanlar olmasaydı, əgər biz bəzi ölkələr kimi, xarici donorlardan asılı olsaydıq, əgər biz yoxsul, səfil Ermənistan kimi ona-buna diләnsəydik, onda əlbəttə ki, bizim müstəqil siyasət aparmaq imkanımız da olmaya bilər, yaxud da ki, bu imkanlar məhdud ola bilərdi. Ona görə iqtisadi güc, maliyyə resurslarımız siyasi müstəqilliyimizi də möhkəmləndirir.

Növbəti illərdə önəmli, tarixi qaz-nəqliyyat layihələrini yenə də icra etməklə Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə Avrasiyada nəqliyyat mərkəzlərinin birinə çevriləcəkdir. Biz siyasətimiz, qətiyyətimiz, düzgün xarici siyasətimiz nəticəsində bunu da edəcəyik. Çünki xarici siyasət, ilk növbədə, daxili problemlərin həllinə yönəlib. Xarici siyasət daxili siyasətin davamıdır. Biz uğurlu xarici siyasəti təkcə ona görə aparmırıq ki, dünyada bizə olan rəğbət artsın. Bu, real işlərə çevrilir. Uğurlu xarici siyasət bu beynəlxalq layihələri də həll etməyə şərait yaradır. Çünki tranzit ölkə olmaq üçün sən mütləq qonşularla işləməlisən. Qonşular olmadan heç bir ölkə tranzit ölkə ola bilməz. Bütün bunlar bir-birinə bağlı olan məsələlərdir. Bizim gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var - bütün sahələrdə, ictimai xidmət sahələrində, korrupsiya, rüşvətxorluğa qarşı mübarizə sahəsində, haqq-ədalətin bərqərar olması sahəsində, bütün istiqamətlərdə. Sadəcə olaraq, bir çıxışda bütün istiqamətlər haqqında geniş danışmaq mümkün deyil. Ancaq mən əminəm ki, Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da möhkəmləndirəcək.

Bizim əsas dəyərimiz, ən böyük nemətimiz müstəqilliyimizdir. Biz müstəqil ölkə kimi yaşayırıq. Müstəqilliyimizin də banisi ulu öndər Heydər Əliyevdir. Məhz onun hakimiyyətə gəlməsindən sonra Azərbaycan, sözün əsl mənasında, müstəqillik yoluna qədəm qoydu.

1993-cü ilə qədər bizim müstəqilliyimiz şərti və yarımçıq xarakter daşıyırdı. Xarici ölkələr, onların Azərbaycandakı nümayəndələri burada hakimiyyətə göstərişlər, təlimatlar verirdi. Əlbəttə ki, bu, tariximizin bəlkə də ən biabırçı səhifələrindən biridir. O ağır vəziyyətdə məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi, - o vaxt bizim hələ ordumuz, iqtisadiyyatımız, pulumuz yox idi, - onun dəmir iradəsi, xalqın ona olan sevgisi, rəğbəti Azərbaycanı, bax, bu müstəqillik yoluna çıxarıbdır. Biz də bu müstəqil yol ilə gedirik və gedəcəyik.

X X X

Sonra çıxış edən işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyev, YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quliyeva, Milli Məclisin deputatı Rəşad Mahmudov, Gəncə şəhərindən olan iş adamı Elnur Camalxanov, Qusar şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Neva Abdurahmanova, ADA Universitetinin tələbəsi Emil Aslanlı dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərindən, əldə olunan nailiyyətlərdən bəhs etdilər. Çıxışlarda 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi təklif olundu.

YAP-ın Sədr müavini-İcra katibi, Baş nazirin müavini Əli Əhmədov 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qurultayın qərarını təqdim etdi.

Qərar yekdilliklə qəbul olundu.

YAP-ın sədri, dövlətimizin başçısı İlham Əliyev ona göstərilən dəstəyə görə minnətdarlığını bildirdi. Yeni Azərbaycan Partiyasının VI qurultayı dövlət himninin səslənməsi ilə başa çatdı.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanında dəyişikliklər edilməsi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 952 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Fransa şirkətləri Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

## *Prezident İlham Əliyev Fransanın "Thales International" şirkətinin birinci vitse-prezidentini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Fransanın "Thales International" şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazini qəbul edib. AZƏRTAC xəbər verir ki, "Thales International" şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazi təmsil etdiyi təşkilatın AZAL ilə uzun illər səmərəli əməkdaşlıq etdiyini vurğuladı və Azərbaycanla bu əməkdaşlığı gələcəkdə də davamlı həyata keçirmək niyyətində olduqlarını qeyd etdi. Rafael Eskinazi "Thales International" şirkətinin dünyada ilk pilot layihəsi olan Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın hava məkanından istifadə, strategiya və inkişaf üzrə səmərəlilik mərkəzinin açılış mərasiminin bu gün keçirildiyini məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı "Thales International" şirkətinin Azərbaycanla əməkdaşlığından məmnunluğunu ifadə edərək şirkətin bu günədək ölkəmizdə həyata keçirdiyi layihələrin önəmini qeyd etdi və bundan sonra da uğurlu əməkdaşlıq aparılacağına ümidvar olduğunu bildirdi.

Söhbət zamanı AZAL ilə "Thales International" arasında bu şirkətin məhsullarının istehsalı ilə bağlı Azərbaycanda birgə müəssisənin yaradılması ətrafında fikir mübadiləsi aparıldı.



# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 53-cü kitabı çapdan çıxıb




***Biz üzv olduğumuz bütün təşkilatlarda fəal iştirak edirik, maraqlarımızı qoruyuruq və götürdüyümüz öhdəlikləri yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz də ola bilməz. Bu, aksiomdur. Çünki əgər o təşkilatın üzvü deyiliksə, biz hansısa öhdəliyi necə götürə bilərik?! Heç bir təşkilat, heç bir beynəlxalq təşkilat bizə qarşı hansısa şərt qoya bilməz. Çünki bu qəbuledilməzdir. Biz bunu qəbul etmirik. İkitərəfli təmaslarda mən şəxsən öz fikirlərimi çox açıq şəkildə ifadə edirəm ki, bizə ancaq bərabərhüquqlu yanaşma yaraşır. Çünki başqa cür ola bilməz. Biz heç kimin qabağında gözükölgəli deyilik. Heç kimdən asılı deyilik.***

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 53-cü kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin IV müşavirəsində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 53-cü kitabındakı materiallar 2012-ci ilin sentyabr ayından oktyabradək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyevin Parisdə Fransa Sahibkarlar Təşkilatının - MEDEF-in üzvü olan iş adamları ilə görüşü haqqında informasiya ilə başlanır.

Nəşrdə dövlətimizin başçısının Fransaya işgüzar səfəri, habelə Özbəkistan Prezidentinin, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinin Azərbaycana səfərləri zamanı apardığı danışıqlara, mətbuata bəyanatlarına, imzalanan sənədlərə, İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısında iştirak etmək üçün Bakıya gəlmiş Türkiyə, İran, Tacikistan və Pakistanın dövlət və hökumət başçıları ilə görüşünə dair materiallar toplanıb.

Çoxcildliyin bu kitabına Azərbaycan Prezidentinin Çin, Rusiya, Latviya, Estoniya, Bolqarıstan, İtaliya, Yunanıstan, Argentina, Uruqvay, Meksika, ABŞ və digər dövlətlərin, ISESCO, Dünya Bankı və digər təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə, Bakıda keçirilən beynəlxalq tədbirlərdə iştirakına, "Körpülərin salınması" beynəlxalq konfransın iştirakçıları ilə görüşünə dair materiallar daxil olunub.

Dövlətimizin başçısının Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqi, Tərtər, Bərdə, Yevlax, Zərdab, Saatlı, Beyləqan, İmişli rayonlarına səfərlərinə, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, respublikada təhsil, səhiyyə müəssisələrinin, infrastruktur obyektlərinin açılışında iştirakına, abadlıq-quruculuq işləri ilə tanışlığına dair informasiyalar da bu cilddə yer alıb. Nəşrdə, həmçinin Prezident İlham Əliyevin Azərbaycanın uğurlu daxili və xarici siyasəti, iqtisadi potensialın möhkəmlənməsi, şaxələndirilmiş iqtisadiyyatın uğurlu nəticələri, enerji və qeyri-neft sektorunun inkişafı, gənclər arasında milli mənəvi dəyərlərin təbliği və gənclər tərəfindən qaldırılan məsələlərə diqqətlə yanaşılması haqqında nitqləri, çıxışları əksini tapıb. Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 53-cü cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# M.Zaxarova: "Rusiya ilə Azərbaycan arasında uğurlu humanitar dialoq inkişaf edir"



"Rusiya ilə Azərbaycan arasında uğurlu humanitar dialoq inkişaf edir, müxtəlif konsertlər, sərgilər, mədəni mübadilə tədbirləri keçirilir. Biz öz tərəfimizdən buna hər vasitə ilə şərait yaradacaq və kömək edəcəyik".

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlər yaradılmasının 25 illiyi ilə əlaqədar Rusiya Dövlət Dumasında sərginin açılışını belə şərh edib.

M.Zaxarova vurğulayıb ki, bu əlamətdar tarix xarici siyasət idarələri xətti ilə qeyd olunub. RF XİN nümayəndəsi daha sonra deyib: "Bizim xarici siyasət idarələri, səfirliklər və xüsusən, ölkələrimizin ictimaiyyəti bu əlamətdar tarixi geniş qeyd edib. Rəsmi tədbirlərdə və mərasimlərdə əsas məqsəd ondan ibarətdir ki, bizim ölkələrdə yaşayan, ortaq tarixə, ortaq mədəniyyətə və ənənələrə malik olan insanlar bütün bu işlərin onlardan ötrü göründüyünü başa düşsünlər". Mədəniyyətin insanları və xalqları bir-birinə ağlayan ən mühüm vasitə olduğunu vurğulayan M.Zaxarova deyib: "Bu sərgini yalnız alqışlamaq olar. Mənə belə gəlir ki, bu cür tədbirlərin sayı çox olmalıdır".

# İtaliya mətbuatı Bakının "Ekspo 2025"ə ev sahibliyi üçün namizədliyindən yazır

***İtaliyanın "Notizie Geopolitiche" analitik portalında tədqiqatçı Corciya Piların müəllifi olduğu "Azərbaycan. Bakının "Ekspo 2025" sərgisi üçün namizədliyi" adlı məqalə dərc olunub.***


Notizie Geopolitiche
PRIMO PIANO PANORAMA FOCUS L'INTERVISTA L'ANALISI
REPORT ASRIE

BAKU AD EXPO 2025

7 febbraio 2018

BAKU AZERBAIJAN EXPO 2025
World Expo 2025 Candidate

*di Giorgia Pilar Giorgi –*

Il 14 novembre 2017, presso il Royal Pavilion di Parigi, si è tenuto un ricevimento per celebrare la candidatura di Baku ad ospitare l'Esibizione mondiale 2025. A introdurre la serata il primo vicepresidente della Repubblica dell'Azerbaigian, Mehriban Aliyeva, che ha aperto la serata con un discorso sull'importanza di Expo e sul ruolo di Baku. Definendo l'Expo una vetrina per la diversità, basata sull'uguaglianza e il rispetto di tutte le culture, capace di raccogliere l'intera comunità internazionale in uno spazio unico per la discussione e la cooperazione globale, Mehriban Aliyeva ha definito l'Azerbaigian il posto ideale per ospitare questa piattaforma universale. Riconosciuto a livello internazionale come centro mondiale di dialogo interculturale e interreligioso, l'Azerbaigian, con il ruolo di ponte commerciale, politico e culturale tra oriente e occidente, nord e sud rappresenta, proprio come World Expo, un importante canale per condividere conoscenze e abilità.
L'occasione di presentare Baku come candidata al World Expo 2025 si è ripetuta il 23 gennaio 2018 a margine del World Economic Forum di Davos, quando si è tenuto un ricevimento di gala presso l'Hotel Intercontinental di Davos-Klosters, in Svizzera. Ad accogliere gli ospiti, fra cui oltre 2.500 leader del mondo degli affari e della politica estera e internazionale, l'ambasciatore Elchin Amirbayov, a capo della task force

AZƏRTAC xəbər verir ki, məqalədə noyabrın 14-də Parisdə, Royal Pavilyonda Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizəd şəhər olması münasibətilə qəbulun təşkil olunduğu və tədbirdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Bakının "Ekspo" sərgisinə namizədliyinin əhəmiyyəti haqqında danışdığı bildirilir. Qeyd olunur ki, "Ekspo 2025"i bütün mədəniyyətlərə bərabərlik və hörmət prinsipinə əsaslanan müxtəliflik sərgiləyən, qlobal müzakirələr və əməkdaşlıq üçün bütün beynəlxalq ictimaiyyəti nadir bir məkanda bir araya gətirən platforma adlandıran Mehriban Əliyeva Azərbaycanı bu universal platformaya ev sahibliyi etmək üçün ən ideal məkan kimi səciyyələndirib, ölkəmizin beynəlxalq səviyyədə mədəniyyətlərarası və dinlərarası mərkəz kimi tanındığını, bilik və bacarıqların mübadiləsi üçün əhəmiyyətli məkan olan "Ekspo 2025"in özü kimi Şərq ilə Qərb, Şimal ilə Cənub arasında ticari, siyasi və mədəni körpü rolunu oynadığını vurğulayıb.

Məqalədə yanvarın 23-də Dünya İqtisadi Forumu vaxtı Davos şəhərindəki "InterContinental" otelində "Ekspo 2025" Ümumdünya Sərgisinə Bakının namizədliyi ilə bağlı keçirilmiş təqdimat mərasiminə və Beynəlxalq Sərgilər Bürosunda Azərbaycan nümayəndə heyətinin rəhbəri, səfir Elçin Əmirbəyovun mərasimdə çıxışına da toxunulur.

Yazıda Azərbaycanın "Ekspo 2025" sərgisinə "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu ilə getdiyi bildirilir, bunun əsasında Azərbaycanın həm insan ləyaqətinin qiymətləndirilməsində, həm də iqtisadiyyatın şaxələndirilməsində əsas vasitə kimi təhsil sahəsinə verdiyi önəmin durduğu vurğulanır. Müəllif ölkəmizin təhsil sahəsində çoxsaylı islahatlar həyata keçirdiyini bildirir, mütəxəssislərimizin UNESCO, UNISEF, UNEVOK, ISESCO, Avropa Təhsil Fondu və digər beynəlxalq təhsil qurumlarının fəaliyyətində iştirak etdiklərini, təcrübələrindən yararlanaraq Avropa Şurası və Avropa İttifaqı kimi qurumlarla əməkdaşlıq etdiklərini qeyd edir. Həmçinin "insan kapitalı" dedikdə ölkə əhalisinin əhəmiyyətli hissəsini təşkil edən gənclərin də inkişafının nəzərdə tutulduğu və Azərbaycan hökumətinin bu sahəyə böyük önəm verdiyi, "Gənclər Siyasəti" proqramı ilə ölkə gənclərinin təhsil almalarına, iş ilə təmin olunmalarına yardım göstərdiyi bildirilir, bundan əlavə ölkədə gənclər üçün imtiyazların mövcudluğu qeyd edilir, gənc tədqiqatçıların mükafatlandırılması üçün xüsusi fondların fəaliyyət göstərdiyi və gənc sahibkarların dəstəklənməsi üçün maliyyə yardımlarının ayrıldığı vurğulanır.

Bakının "Ekspo 2025" ilə bağlı təklif etdiyi layihədə təhsil sahəsindən başqa, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə üst-üstə düşən səhiyyə və məşğulluq sahələrində də məqsədlərin öz əksini tapdığı qeyd olunaraq, bu məqsədlərin üç mövzuda: "İstedad, Sağlamlıq və Nailiyyət" kimi cəmləşdirildiyi vurğulanır.

Ümumdünya sərgilərinin 160 ildən artıq müddətdə ölkələrin mədəniyyətini və sənaye inkişafını qeyd etmək üçün təşkil olunduğunu bildirən müəllif Bakının "Ekspo 2025"ə ev sahibliyi üçün namizədliyini irəli sürməkdə məqsədlərinin daha geniş olduğunu vurğulayır və bu məqsədlərin "Ekspo"dan təkcə bəşəriyyətin və sənayenin inkişafını qeyd etmək üçün deyil, dövrümüzün ən vacib universal çağırışlarının qlobal müzakirəsi üçün platforma kimi istifadə etmək olduğunu diqqətə çatdırır. Qeyd edir ki, "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" şüarı Azərbaycan hökuməti tərəfindən insan kapitalının inkişafına yardım göstərmək və onun qorunmasını təmin etmək üçün Azərbaycanın dövlət qurumlarının yorulmaz səylər göstərdiyini sübut edən ismarıcdır. Gənclər və təhsillə yanaşı, digər sahələrdə işçilərin təhlükəsizliyinin təmin edilməsi, onların sağlamlığını qoruyan təhlükəsizlik şəraitində öz vəzifələrini yerinə yetirmək üçün zəmanətin verilməsi də böyük əhəmiyyət kəsb edir.

Məqalədə "Ekspo 2025" üçün ayrılması nəzərdə tutulan sahə haqqında da məlumat verilərək, sərgi ilə bağlı ölkəmizin müvafiq qurumları tərəfindən Bakı şəhərində möhtəşəm bir parkın salınmasının nəzərdə tutulduğu bildirilir.

Yazıda Avropa və Asiya qitələrinin kəsişməsində yerləşən Azərbaycanın coğrafi və geosiyasi üstünlüyünə görə qədim zamanlardan həm beynəlxalq iqtisadi, həm də mədəni münasibətlərdə strateji rol oynadığı bildirilir. Ölkəmizdə müxtəlif etnik və dini qrupların dinc birgə yaşama mədəniyyətinin mövcudluğunun Bakı şəhərini beynəlxalq tədbirlərə ev sahibliyi üçün ideal məkana çevirdiyi vurğulanır və Bakıda "Eurovision 2012", birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, 2016-cı ildən başlayaraq Formula-1 yarışlarının keçirildiyi diqqətə çatdırılır. Bundan əlavə, öz zəngin tarixi irsi, möhtəşəm memarlıq üslubuna görə Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazandığı qeyd olunur.

Sonda müəllif Azərbaycanın təbii gözəlliyə, qonaqpərvərliyə, multikultural və tolerant dəyərlərə malik olan, həmçinin beynəlxalq tədbirlər üçün daha çox seçilən ölkə olduğuna görə "Ekspo 2025" sərgisinə ev sahibliyi üçün ideal məkan olduğunu vurğulayır.

Məqalə ilə aşağıdakı linkdən tanış olmaq mümkündür: http://www.notiziegeopolitiche.net/azerbaijan-la-candidatura-di-baku-ad-expo-2025/

***Asiman Əsədov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Roma***

## Novruz Məmmədov: “Azərbaycan xalqı İlham Əliyevə inanır”



“Möhtəşəm bir Qurultay. Səmimi, ürəkdən gələn, gələcəyə inamlı və ümid dolu çıxışlar. Ölkənin müxtəlif region və təşkilatlarının nümayəndələrinin nitqləri bir leytmotiv üzərində köklənmişdi: Azərbaycanın stabil, təhlükəsiz və çiçəklənən gələcəyinin növbəti yeddi ilinin memarı Prezident İlham Əliyev olmalıdır”. SİA-nın verdiyi məlumata görə, bunu Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri Novruz Məmmədov özünün “Facebook” səhifəsində yazıb.

“İstər-istəməz dahi Heydər Əliyevin aşağıdakı cümlələrini - “Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram... Mən ona özüm qədər inanıram və gələcəyinə Böyük Ümidlər bəsləyirəm” xatırladım. Qurultayda elə təəssürat yaranmışdı ki, sanki hamı bu müdrik kəlamları xatırlayır. Düşünürəm: Şübhəsiz Azərbaycan xalqı Prezident İlham Əliyevə inanır”, - N.Məmmədov qeyd edib.

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



Fevralın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Komissiyanın 2017-ci il 15 noyabr və 2018-ci il 6 fevral tarixində keçirilmiş iclaslarının protokolları təsdiq edilib. Sonra MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra müvafiq dəyişikliklər təsdiq edilib.

İclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində də dəyişikliklər edilib. Beynəlxalq və xarici qurumların, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

## Müdafiə Nazirliyi: “Ermənistan ordusunun bir hərbi qulluqçusu məhv edilib, iki hərbçisi ağır yaralanıb”

Müdafiə Nazirliyi Ermənistan mətbuatının erməni hərbi qulluqçusu Ayk Kələntəryanın guya atəşkəs rejiminin pozulması nəticəsində ölməsi barədə məlumatı şərh edib. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki,



cəbhə xəttinin Füzuli istiqamətində Azərbaycan Ordusunun ön xətdə yerləşən mövqelərinə düşmən tərəfin növbəti təxribat cəhdinin qarşısı bölmələrimiz tərəfindən görülən qabaqlayıcı tədbirlər nəticəsində alınıb. Ermənistan silahlı qüvvələri bölmələrinin 1 hərbi qulluqçusu məhv edilib, 2 hərbçisi isə ağır yaralanıb. Düşmən geri çəkilməyə məcbur edilib. Azərbaycan Ordusunun bölmələri cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

# Siyavuş Novruzov: “İlham Əliyev alternativsiz liderdir!”

***“Ölkəmizin müasir siyasi tarixində növbəti əhəmiyyətli hadisə yaşandı və ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyasının VI qurultayında siyasi təşkilatımızın Sədri, Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərinə namizədliyi irəli sürüldü. Artıq bu gündən O, həm partiyamızın 700 minlik üzvlərinin, həm də bütövlükdə xalqımızın alternativsiz lideri olaraq aprel ayının 11-də keçiriləcək seçkilərdə möhtəşəm qələbəyə doğru inamla addımlayacaq”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib.***



Onun sözlərinə görə, bu seçim eyni zamanda xalqın seçimidir və xalq-hakimiyyət birliyinin bariz təcəssümüdür: “Bütövlükdə, Prezident İlham Əliyevin alternativsiz lider olması bir sıra əhəmiyyətli məqamlara söykənir. Ölkəmizdə uzun illərdir ki, ictimai-siyasi sabitlik mövcuddur, iqtisadi qüdrətimiz dünyanın ən aparıcı dövlətləri ilə eyni sırada dayanır, Azərbaycan bir sıra nüfuzlu sorğu mərkəzlərinin keçirdiyi sorğularına görə ön pillələrdə yer alır və bu kimi uğurlarımız minlərlədir. Əbəs deyil ki, Azərbaycan istər Qafqaz regionunda, istərsə də dünyada lider ölkəyə və söz sahibinə çevrilib. İstər regional, istərsə də daha böyük istiqamətlərdə görülən işlər, reallaşdırılan layihələr bu liderliyin məntiqi nəticəsidir. Əlbəttə ki, eyni zamanda bütün bunların əsası bilavasitə Prezident İlham Əliyevin müdrik, qətiyyətli və uzaqgörən siyasətinə söykənir. Ümumiyyətlə isə O, hər bir azərbaycanlının Prezidenti, xalqına verdiyi vədlərinə əməl edən əvəzsiz liderdir”.

Siyavuş Novruzov onu da bildirib ki, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm irəliləyişlərə, diplomatik uğurlara nail olub, bundan sonra da davamlı şəkildə nailiyyətlər əldə ediləcək: “Mən xüsusilə, 2016-cı ilin aprel döyüşlərində Ali Baş Komandanımızın rəhbərliyi altında azad edilən torpaqlarımızda, Cocuq Mərcanlıda başlayan nəhəng quruculuq və abadlıq işlərini vurğulamaq istərdim. Bu gün azad olunmuş ərazilərimizin yüksək nöqtələrində üçrəngli bayrağımız qürurla dalğalanır. Bizlər əminik ki, bu bayrağımız yaxın zamanlarda Xankəndidə, Şuşamızda da dalğalanacaq”.

YAP-ın İcra katibinin müavini bildirib ki, Azərbaycan xalqı aprelin 11-də keçiriləcək növbədənkənar seçkilərdə hər zamankı kimi fəallıqla iştirak edəcək: “Əminəm ki, həmin gün xalqımızın fəal iştirakı ilə keçiriləcək seçkilər Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin qələbəsi ilə nəticələnəcək”.

***Rövşən NURƏDDİNOĞLU***

# Seymur Orucov: “Azərbaycan gəncliyi YAP-ın qərarını böyük sevinclə qarşılayır”

***“Bu gün Yeni Azərbaycan Partiyasının VI Qurultayı tarixi bir qərar qəbul etdi. Qurultay qarşıdan gələn prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürdü. Azərbaycan gəncliyi bu qərarı böyük sevinclə qarşılayır”. Bu fikirləri yap.org.az saytına qurultay nümayəndəsi, YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib.***

S.Orucov bildirib ki, YAP-ın VI Qurultayının belə bir qərar qəbul etməsi cəmiyyətdən gələn sosial sifarişdir. Onun sözlərinə görə, şübhəsiz ki, Azərbaycan gəncliyinin seçimi cənab İlham Əliyevdir: “Artıq ölkə gəncliyi bu qərarla bağlı öz fikirlərini ictimai rəydə bölüşürlər. Xüsusilə, sosial şəbəkələrdə bu xəbəri paylaşır və cənab İlham Əliyevin qələbə qazanacağına əmin olduqlarını vurğulayırlar. Əlbəttə ki, gənclərin bu seçiminin ciddi əsasları var. Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti nəticəsində Azərbaycan gəncliyi yüksək inkişaf mərhələsini yaşayır. Bu gün uğurla davam etdirilən həmin siyasət müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq həm mahiyyət, həm də keyfiyyət etibarilə yeni mərhələyə qədəm qoyub. Bu siyasətin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Yeni mərhələdə dövlət başçısı İlham Əliyev tərəfindən gerçəkləşdirilən gənclər siyasəti çox geniş spektrə malikdir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu strategiyadan irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində bu gün Azərbaycan gənci idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlərə imza atır, dövlətçilik ənənələrini daim uca tutur, ictimai-siyasi həyatda yaxından iştirak edir.



Məhz həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan gəncliyi artıq cəmiyyətin inkişafında ciddi rolu olan fəal sosial təbəqəyə çevrilib. Azərbaycanda dövlət səviyyəsində gənclərlə bağlı bir sıra proqramlar və layihələr həyata keçirilir. Dövlət hər bir addımında gəncləri müdafiə etdiyini, dəstəklədiyini nümayiş etdirir. Müasir dövrdə gənclərin cəmiyyətin həyatında avanqard mövqeyilə ictimai-siyasi proseslərin önündə yer alması, dövlətin gələcəyinin onlarla bağlı olması gənclərin üzərinə böyük məsuliyyət qoyur. Ona görə də, gənclərimiz, o cümlədən YAP Gənclər Birliyinin üzvləri dövlətin etimadını layiqincə doğrultmağa çalışırlar. Bu baxımdan, aprelin 11-də keçiriləcək prezident seçkilərində partiyamızın namizədi cənab İlham Əliyevin təbliğat kampaniyasında gənclərimiz fəal iştirak edəcəklər. Biz əminik ki, xalqımız bu dəfəki seçkidə də partiyamızın Sədri cənab İlham Əliyevi dəstəkləyəcək

## “Növbədənkənar seçkilərin keçirilməsi ən optimal variantdır”

“Azərbaycanda növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı qərar yerində verilib və ən optimal variant hesab oluna bilər”. Bu fikirləri SİA-ya millət vəkili Tahir Kərimli bildirib. Deputatın sözlərinə görə, cari ildə ölkəmizdə mühüm tədbirlərin keçirilməsini nəzərə alsaq, seçkinin vaxtından əvvələ salınması düzgündür: “Bildiyiniz kimi, 2018-ci ildə Azərbaycanda bir sıra mühüm yubiley tədbirləri keçiriləcək. Azərbaycanda Xalq Cümhuriyyətinin 100 illiyi, Azərbaycan Milli Ordusunun yaradılmasının 100 illiyi, Heydər Əliyevin 95 illik yubileyi və digər mühüm tarixi hadisələr qeyd olunacaq. Bu cür tədbirlərin keçiriləcəyini nəzərə aldıqda prezident seçkilərinin növbədənkənar keçirilməsi daha optimal görünür”.

T.Kərimli vurğulayıb ki, növbədənkənar prezident seçkiləri Azərbaycan Konstitusiyası və Seçki Məcəlləsinə tam şəkildə uyğundur. Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə gündən-günə inkişaf edir. Ölkəmiz sabit ölkə olmaqla yanaşı, güclü iqtisadiyyata maikdir. Azərbaycanın son 10 ildəki inkişafını, görülən işləri, atılan addımları nəzərə aldıqda, prezident seçkilərində Dövlət başçısı İlham Əliyevin namizədliyinin irəli sürülməsi tam məqsədəuyğundur. Bu seçkilərdə İlham Əliyevin qalib gələcəyinə heç kimin şübhəsi yoxdur. Çünki Azərbaycan xalqı prezidentinin yanındadır və hər zaman ölkə başçısına dəstəkdir”- deyə, deputat əlavə edib.

# “YAP-ın Qurultayı Azərbaycan xalqının arzularını ifadə edən siyasi forum oldu”

***“Yeni Azərbaycan Partiyasının VI Qurultayı çox yüksək səviyyədə keçdi. Bütün Azərbaycan xalqının istək və arzularını ifadə edən bir tədbir oldu “. Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi şurasının üzvü, Milli Məclisin deputatı Musa Quliyev deyib.***

Qurultayda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri İlham Əliyevin yaxın 10 ilin proqramını əks etdirən məruzə ilə çıxış etdiyini deyən M.Quliyev bildirib ki, Ölkə başçısı öz çıxışı ilə partiya üzvlərinə Azərbaycanın yaxın illərdə perspektivinin yolunu göstərmiş oldu: “Dövlət başçısı qurultayda Azərbaycana ictimai sabitliyin nə qədər vacib olduğunu vurğuladı, ölkəmizin demokratik, hüquqi, sivil bir dövlət olduğunu və bu yolla da inkişaf edəcəyini göstərdi. Prezident İlham Əliyev eyni zamanda Azərbaycanın sosial-iqtisadi inkişaf tempinin bundan sonra da yüksək sürətlə davam edəcəyini bəyan edərək, göstərdi ki, ölkəmizdə bütün insan hüquq və azadlıqları qorunub və bundan sonra da qorunub inkişaf etdiriləcək”.



YAP Siyasi Şurasının üzvü qeyd edib ki, ölkə rəhbəri qurultayda söyləyib ki, Azərbaycanın beynəlxalq siyasəti beynəlxalq hüquqa və ədalətə əsaslanan siyasət olacaq və ölkəmiz beynəlxalq nüfuzunu yaxın gələcəkdə daha da artıracaq: “Prezident İlham Əliyev vurğuladı ki, dünyadan neftin qiymətinin dəyişməsindən asılı olmayaraq, ölkəmiz bundan sonra da öz iqtisadi inkişafını qeyri-neft sektorunun inkişafına görə-cək və neftdən gələn gəlirlər gələcək nəsillər naminə fondumuzda valyuta ehtiyatı şəklində yığılacaq. Dövlət başçısı həmçinin qeyd etdi ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək iqtidarındadır və torpaqlarımız yaxın gələcəkdə işğaldan azad olunacaq. Qaçqın və məcburi köçkün vətəndaşlarımız öz yurd-yuvalarına qayıdacaqlar. Lakin dövlət başçısı söylədi ki, bizim missiyamız bütün bunlarla bitmir. Bizim əsas tarixi missiyamız Azərbaycanın tarixi torpaqlarına qayıtmaqdır. Cənab Prezident öz çıxışında İrəvanın, Zəngəzurun Göyçənin və digər torpaqların Azərbaycanın tarixi torpaqları olduğunu və bizim bu torpaqlara qayıtmağın da xalqımızın, gənclərimizin ümdə vəzifələrindən biri kimi xarakterizə etdi”. M.Quliyev əlavə edib ki, Azərbaycanın müxtəlif bölgələrindən olan qurultay nümayəndələri öz çıxışlarında birmənalı olaraq öz təmsil etdikləri YAP-ın üzvləri adından bəyan etdilər ki, ölkə başçısının siyasəti bütün bölgələrdə dəstəklənir, bəyənilir: “Qurultayda bildirildi ki, xalq bu siyasətin yenidən davam etdirilməsini arzu edir. Bütün qurultay nümayəndələri və orada çıxış edən şəxslər Dövlət başçısı İlham Əliyevin bu ilin aprel ayının 11-də keçiriləcək seçkilərdə YAP-ın namizədi olmasını dəstəklədilər. Nəhayət Qurultayda qətnamə qəbul olundu və bu qərar birmənalı olaraq alqışlandı və dəstəkləndi. Mən hesab edirəm ki, bütövlükdə qurultay Azərbaycan xalqının arzularını ifadə edən siyasi forum oldu”.

# Bəhruz Quliyev: “YAP-ın VI Qurultayının qərarı Azərbaycan xalqının mövqeyinin ifadəsidir”

***“Yeni Azərbaycan Partiyasının VI Qurultayında aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyevin namizədliyi rəsmi şəkildə irəli sürüldü. Qurultayın qəbul etdiyi bu qərar Azərbaycan xalqının fikrinin, mövqeyinin ifadəsidir”.***

Bu fikirləri yap.org.az saytına “Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib. B.Quliyev bildirib ki, bu qərarın ciddi əsasları var. Çünki Prezident İlham Əliyev 15 il ərzində dövlət başçısı kimi uğurlu siyasət həyata keçirib və Azərbaycan müstəqil dövləti olaraq daha da güclənib, dünya miqyasında söz sahibi olan dövlətə çevrilib. Onun sözlərinə görə, Azərbaycan Cənubi Qafqaz regionunun lideri olmaqla yanaşı bütövlükdə, beynəlxalq miqyasda sayılan-seçilən ölkələrdən birinə çevrilib.

“Ötən dövr ərzində bütün sahələr üzrə müxtəlif dövlət proqramları həyata keçirilib. Mühüm islahatlar reallaşdırılıb, ölkəmizin hərtərəfli inkişafı üçün genişmiqyaslı tədbirlər gerçəkləşib. Bütün bunların nəticəsində də ölkəmizin iqtisadiyyatı əhəmiyyətli dərəcədə güclənib, əhalinin sosial rifahı daha da yüksəlib. Eyni zamanda, humanitar, mədəniyyət, idman və digər sahələrdə də ciddi nailiyyətlər qazanılıb. Əlbəttə ki, bu nailiyyətlərin əsasında Heydər Əliyev ideyaları, Prezident İlham Əliyevin uğurlu siyasəti dayanır. Ona görə də, xalqımız cənab Prezidentin həyata keçirdiyi siyasəti birmənalı olaraq dəstəkləyir”, - deyə, baş redaktor vurğulayıb.

B.Quliyev qeyd edib ki, Azərbaycan dövlətinin xarici siyasəti də milli maraqlarımıza tam uyğundur. Onun sözlərinə görə, ötən 15 il ərzində Azərbaycan bütövlükdə dünya üçün böyük əhəmiyyət kəsb edən nəhəng layihələrə imza atıb. İstər enerji, istərsə də nəqliyyat layihələri Azərbaycana iqtisadi dividendlər gətirməklə yanaşı, onun beynəlxalq miqyasda da mövqeyini gücləndirən faktorlardır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də Prezident İlham Əliyevin prinsipial mövqe nümayiş etdirdiyini deyən B.Quliyev söyləyib ki, Azərbaycan sülh tərəfdarı olmaqla yanaşı öz ordusunu daim gücləndirir. Çünki biz torpaqlarımızın işğalı ilə barışa bilmərik və işğalçı tərəfin təxribatlarına tutarlı cavab veririk. 2016-cı ilin aprel döyüşləri bunu sübut etdi. B.Quliyev qeyd edib ki, Azərbaycan Prezidenti xarizmatik liderdir və xalqımız, hər bir vətəndaş öz dövlət başçısı ilə qürur duyur: “Prezident İlham Əliyevin vurğuladığı kimi dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Cənab İlham Əliyev ötən 15 il ərzində genişmiqyaslı fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi. Eyni zamanda, dövlətimizin başçısı Özünün bu fəaliyyəti ilə hər bir vətəndaşın inamını, sevgisini qazanıb”.



Bəzi dairələrin növbədənkənar prezident seçkilərinin keçirilməsi haqda qərarı yanlış olaraq tənqid etdiklərini deyən B.Quliyevin fikrincə, ilk növbədə, dövlət başçısı Konstitusiya ilə verilmiş səlahiyyətlər çərçivəsində belə bir Sərəncam imzalayıb: “Əslində, bu, dövlət başçısının Konstitusiya ilə verilmiş müstəsna hüququdur. Digər tərəfdən, Prezidentin səlahiyyət müddəti bu ilin oktyabrında başa çatır. Amma cənab Prezident bu Sərəncamı imzalamaqla əslində, digər siyasi partiyalara, namizədlik iddiasında olan şəxslərə şans verir ki, prezident seçkilərinə daha tez qatılsınlar və öz güclərini sınasınlar. Eyni zamanda, bu qərar cənab Prezidentin özünəinamının ifadəsidir. Seçkilərdə kimin namizəd kimi iştirak edəcəyindən asılı olmayaraq, ötən 15 ildə qazanılan nailiyyətlər cənab İlham Əliyevin qələbəsini şərtləndirir”.

Azərbaycanın inkişafını istəməyən qüvvələrin hər zaman ölkəmizdə sabitliyi pozmağa, uğurlarımıza kölgə salmağa çalışdığını deyən B.Quliyev söyləyib ki, antiazərbaycançı qüvvələrin bu cəhdləri iflasa uğrayıb. “Cənab Prezident müstəqilliyimizin, dövlətimizin təhlükəsizliyinin qarantıdır. Ona görə də, bu qərar Azərbaycanın milli və dövlət maraqlarına tam uyğundur. Prezidentimizin hər bir addımı xalqımızın maraqlarının qorunmasına və dövlətimizin daha da möhkəmlənməsinə xidmət edir. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycanda xalq-hakimiyyət birliyi sarsılmazdır. Və uğurlarımızın təməlində də bu amil mühüm rol oynayır. Bütün bunların fonunda YAP-ın VI Qurultayının qərarı hər bir vətəndaşın fikrini ifadə edir. Azərbaycan demokratik dövlətdir və qarşıdan gələn seçkilərin azad, şəffaf keçiriləcəyi şübhəsizdir. Yəqin ki, seçkilərdə başqa namizədlər də olacaq. Amma Azərbaycanda heç bir siyasətçi cənab İlham Əliyevə alternativ ola bilməz”, - deyə, B.Quliyev vurğulayıb.

## Hikmət Babaoğlu: “İlham Əliyev bütövlükdə Azərbaycan xalqının namizədidir”



“Bu gün Azərbaycanın ən yeni siyasi tarixində çox mühüm bir hadisə baş verdi. Ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası aprel ayının 11-də keçiriləcək növbədənkənar prezident seçkilərinə öz namizədini irəli sürdü. Bu, YAP-ın Sədri, cənab İlham Əliyevdir”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, hakim partiyanın bu seçimi bütövlükdə Azərbaycan xalqının seçimidir və xalqın irəli sürdüyü namizəddir: “Ona görə ki, YAP ümumxalq partiyasıdır və partiyanın namizədi 700 mindən çox olan partiya üzvlərinin namizədidir. Bu isə əslində Azərbaycan xalqı deməkdir. Bilirsiniz ki, YAP-ın Sədri, cənab Prezident İlham Əliyev bəyan edib ki, “mənim həyata keçirdiyim siyasətin mərkəzində Azərbaycan vətəndaşının, xalqının rifahı durur”. Doğrudan da, nəzər yetirsək görəcəyik ki, Prezident hakimiyyətdə olduğu 15 il müddətində “Mən hər bir azərbaycanlının prezidenti olacam” siyasi fəlsəfəsinə sadiq olaraq hər bir bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı, gələcəyi üçün əlindən gələn hər şeyi edib. Hər şeydən öncə Azərbaycanda ictimai-siyasi sabitliyi yaradıb, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin, xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyub saxlaya bilib. Hələ üstəlik onu inkişaf etdirib və ölkəmizdə işsizliyin, yoxsulluğun səviyyəsi azalıb. Azərbaycanın regionları inkişaf edib, dövlətimiz region, dünya ölkələri içərisində çox mühüm bir tərəfdaşa çevrilib.

Buna paralel olaraq cənab Prezident Azərbaycan Ordusunu gücləndirib. Ölkə başçısı Ali Baş Komandan kimi 2016-cı ilin aprel döyüşlərinə imza atıb. Bununla da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ciddi hərbi-siyasi dönüşə nail olub. Sadalayacağımız çoxsaylı bu kimi uğurlar əlbəttə ki, 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirəcək. Düşünürəm ki, bu seçim partiyamızın irəli sürdüyü namizəd, İlham Əliyev olacaq”.

## Prezident İlham Əliyev xalqın ən etibarlı namizədidir



“Ölkə Prezidenti cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi olduqca təbii və qanunauyğun haldır”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Tahir Rzayev deyib. Onun sözlərinə görə, İlham Əliyevin hakimiyyətdə olduğu illərdə gördüyü işlər, həyata keçirilən irimiqyaslı layihələr ona bilavasitə haqq verir ki, yenidən Azərbaycan Respublikasına Prezidentliyə namizəd olsun. Çünki bu 15 ildə ölkənin inkişafında çox mühüm hadisələr baş verib. İstər iqtisadi, istər sosial, istərsə də beynəlxalq sahədə Azərbaycanın nüfuzu qat-qat artıb. Nəinki, Azərbaycanın nüfuzu artıb, hətta Azərbaycan xalqının mədəni-rifah halı yüksəlib. Həyata keçirilən layihələr Azərbaycana çox böyük uğurlar gətirməklə yanaşı, dünya miqyasında seçilməsinə və önə getməsinə səbəb olub. Bu gündə bu proses davam edir. Ona görə də Qurultayda YAP tərəfindən təklif olundu ki Prezident İlham Əliyevin yenidən Prezidentliyə namizədliyi irəli sürülsün. Bu təkcə YAP-ın təşəbbüsü deyil, bütöv Azərbaycan xalqının istəyi və arzusudur. Çünki Prezident İlham Əliyev bu illər ərzində sübut etdi ki, xalqın ən etibarlı namizədidir.”

# Sədaqət Vəliyeva: "YAP-ın Cənab İlham Əliyevin namizədliyini irəli sürməsi xalqın istək və arzularını reallaşdırdı"

***"Yeni Azərbaycan Partiyasının VI Qurultayı möhtəşəm şəkildə baş tutdu. Bu tarixi tədbirdə 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın Sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qərar qəbul edildi.***



Məhz Cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi ilə xalqın istəyi rəsmiləşdirilmiş oldu. Çünki İlham Əliyev təkcə 700 mindən çox üzvü olan YAP-ın deyil, ümumilikdə, xalqın mütləq əksəriyyətinin dəstəklədiyi namizəddir və eyni zamanda, Prezident İlham Əliyevin namizədliyinin irəli sürülməsi sosial sifariş idi". Bunu YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyevə olan xalqın inamı, istəyi, onun növbəti dəfə də Prezident seçilməsini arzulamasının əsasında dövlət başçısının 15 il ərzində gördüyü işlər, insanlara nümayiş etdirdiyi qayğı və diqqəti durur: "Prezident İlham Əliyevin son 15 ildəki fəaliyyəti nəticəsində, iqtisadiyyatımız 3,2, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə artıb, sənaye sahəsində 2,6 dəfə, kənd təsərrüfatında 1,7, qeyri-neft ixracında 4,1 dəfə artım olub. Valyuta ehtiyatlarımız 23 dəfə artaraq, 42 milyard dollara bərabər olub. Ökə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub, 1,9 milyon iş yeri yaradılıb, işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsinə enib. Eyni zamanda, son 15 il ərzində 30 elektrik stansiyası tikilib, qazlaşdırma 93 faizə, fasiləsiz içməli su ilə təminat 67 faizə çatıb, 4 su anbarı - Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay su anbarları tikilib, 100 minlərlə hektar suvarılmayan torpaqlara həyat gətirilib, su gətirilib, 12 min 300 kilometr yol çəkilib və s. Bir sözlə, bu gün də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sabitliyi və dinamik inkişafı qorunub- saxlanılır. Məhz bu səbəbdən də, Azərbaycan seçiciləri Cənab İlham Əliyevi yenidən Prezident görmək istəyirlər. Elə buna görə də, xüsusi olaraq, qeyd etmək lazımdır ki, YAP 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın Sədri İlham Əliyevin namizədliyini irəli sürməsi ilə insanlarımızın istək və arzularını reallaşdırdı".

***RÖVŞƏN***

## Rafal Piexota: "Azərbaycanda antidopinq sahəsində qısa müddətdə böyük nailiyyətlər əldə edilib"



Azərbaycanda antidopinq sahəsində bir il ərzində görülən işləri çox yüksək qiymətləndiririk. Müşahidə etdiyimiz proseslərlə bağlı fikirlərimizi may ayında Avropa Şurasında keçiriləcək görüşdə bildirəcəyik. İndi deyə bilərəm ki, Azərbaycan Milli Antidopinq Agentliyinin gördüyü işlər bizi yaxşı mənada çox təəccübləndirdi. Azərbaycanda qısa zamanda çox böyük nailiyyətlər əldə edilib.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ümumdünya Antidopinq Agentliyi (WADA) üzrə ad-hoc Avropa Komitəsinin (CAHAMA) sədri, Polşanın idman və turizm naziri ofisinin direktor müavini Rafal Piexota Azərbaycanın Gənclər və İdman Nazirliyində ölkəmizə səfəri ilə bağlı keçirdiyi brifinqdə söyləyib. O deyib ki, səfərin məqsədi Azərbaycanda antidopinq siyasətinin monitorinqini aparmaq və müxtəlif məsləhətlər verməkdir. Rafal Piexota səfər zamanı Milli Olimpiya Komitəsində, Gənclər və İdman Nazirliyində, Səhiyyə Nazirliyində, Dövlət Gömrük Xidmətində, Dövlət Sərhəd Xidmətində, idman federasiyalarında, Milli Məclisin gənclər və idman komitəsində və digər qurumlarda görüşlər keçirdiyini diqqətə çatdırıb.

## Ötən ay Naxçıvanda miqrasiya qanunvericiliyinin tələblərini pozmuş 28 əcnəbi barədə müvafiq tədbir görülüb



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə muxtar respublikanın Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilib. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, yanvar ayında muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən mövcud qanunvericiliyin tələblərini pozmuş 28 əcnəbi xidmət tərəfindən aşkarlanıb. Onlardan 24-ü barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərk etmə, 4-ü barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul olunub.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 625 müraciət daxil olub. Bu müraciətlərdən 72-si əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti və daimi yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. Yanvar ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 553 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 234-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

## "Azərbaycan musiqi tarixi" kitabının üçüncü cildi oxucuların ixtiyarına verilib




"Elm" nəşriyyatında çapdan çıxmış "Azərbaycan musiqi tarixi" kitabının üçüncü cildi oxucuların ixtiyarına verilib. Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun bir qrup əməkdaşının birgə əməyinin bəhrəsi olan kitab bu müəssisənin şöbə müdiri, görkəmli sənətşünas alim, musiqi mənbəşünaslığının banisi, akademik Zemfira Səfərovanın layihəsi əsasında və onun elmi redaktorluğu ilə nəşr edilib. AZƏRTAC xəbər verir ki, çoxillik kollektiv araşdırmasının məhsulu olan nəşrin bu cildi XX əsrin 40-cı illərindən respublikamızın müstəqillik illərinə qədərki dövrünü əhatə edir. Kitabın giriş hissəsində bu mürəkkəb və maraqlı dövrün ümumi səciyyəsi verilir, musiqimizdə opera, balet, simfoniya, musiqili komediya və digər janrların yaranması və inkişafı göstərilir. Cildin hər fəslində Azərbaycanın bu dövrünün musiqi həyatı, dahi Üzeyir Hacıbəylinin yaratdığı zəngin musiqi məktəbinin yetirməsi olan bəstəkarların həyat və yaradıcılığının təhlili və tədqiqi verilir. Kitabda, həmçinin nadir fotolar və not nümunələri də təqdim olunur.

## Ermənistan Azərbaycanda keçiriləcək 11 aprel seçkilərindən qorxur

Azərbaycanda qlobal iqtisadi problem yoxdur. Əksinə, iqtisadi artımın olduqca ciddi perspektivləri var. Ermənistanın uzun müddətdir özünə müttəfiq hesab etdiyi ölkələr bu gün Azərbaycanla səmimi münasibətlər qururlar və bu münasibətlərdə biznes əsas paya sahibdir. AZƏRTAC xəbər verir ki, bu fikirləri erməni siyasi şərhçisi Qrasiya Qalustyan "Armenia report" saytına açıqlamasında bildirib. O deyib ki, Rusiyada keçiriləcək prezident seçkilərində Vladimir Putinin qələbəsindən sonra Azərbaycan Dağlıq Qarabağın azad edilməsi istiqamətində ciddi fəaliyyətə başlayacaq və Moskva bu proseslərdə Bakını dəstəkləyəcək.



Erməni siyasi şərhçi, həmçinin Azərbaycanda aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkiləri bağlı da narahatlığını bildirərək qeyd edib ki, prezident seçkilərinin vaxtının aprelin 11-nə dəyişdirilməsi heç də iddia edildiyi kimi iqtisadi məsələlərdən irəli gəlmir. Tehran, Bakı və Moskva bölgədə yeni böyük nəqliyyat layihəsinin - Şimal-Cənub beynəlxalq dəmiryolu layihəsinin əsasını qoyur. Martda Azərbaycan və İran prezidentlərinin görüşünün olacağını deyən erməni siyasətçi Azərbaycan Astarası ilə İran Astarası arasındakı körpünün istifadəyə veriləcəyini, həmçinin Astara-Rəşt dəmiryolunun təməlinin qoyulacağını bildirib. Onun sözlərinə görə, İran tərəfi bəyan edib ki, bu, Fars körfəzi ilə Qara dənizi birləşdirən böyük əhəmiyyətli layihədir. Həmin nəqliyyat dəhlizi vasitəsilə yüklər Gürcüstan, Ukrayna və Polşaya qədər daşınacaq. Ermənistan yenə böyük gəlirlərdən təcrid olacaq, Azərbaycan isə təkcə maliyyə yox, həm də siyasi dividendlər əldə edəcək.

Q.Qalustyan deyib ki, İran Azərbaycana yarım milyard dollar kredit ayırıb. Bu səbəbdən Azərbaycanda iqtisadi problemlərin olması bağlı fikirlər səsləndirmək əsassızdır və rəsmi Bakı artıq qərb ölkələri ilə iddialı danışır. Prezident İlham Əliyevin Davos görüşlərini xatırladan erməni politoloq qeyd edib ki, bu beynəlxalq iqtisadi tədbirdə iştirakçı ölkələr Azərbaycanı önəmli tərəf olaraq qəbul edirdilər.

Azərbaycan və Rusiya arasında isti münasibətlərə də toxunan Qalustyan önəmli bir nüansı diqqətə çatdıraraq bildirib ki, Rusiya telekanallarında heç vaxt Azərbaycanı tənqid etmirlər, halbuki orada Ermənistan ən pis sözlərlə təhqir olunur. Bundan başqa, Duqinin, Solovyovun, Proxanovun Bakıya səfərlərini də xatırladan erməni şərhçi deyib ki, onlar işğal olunmuş ərazilərin Azərbaycana qaytarılması ideyasını müdafiə edirlər. Bütün bunlarla yanaşı, Kreml Sarkisyandan narazılığını gizlətmir. Aprelin 9-da Sarkisyanın prezidentlik müddəti başa çatır və Azərbaycanda seçkilər payızda keçirilsəydi, bu, Dağlıq Qarabağ danışıqlarında pauza yaranması ilə nəticələnərdi. Göründüyü kimi, Azərbaycan heç bir fasilənin yaranmasına imkan vermək niyyətində deyil. Seçkinin vaxtının dəyişdirilməsi də məhz buna hesablanıb.

Q.Qalustyan vurğulayıb ki, Rusiyadakı seçkidən dərhal sonra Azərbaycan Qarabağın azad olunması prosesinə başlayacaq. Kremlin siyasi dəstəyi nəticəsində erməni ordusu heç nə edə bilməyəcək. Bu, təkcə Serj Sarkisyanın yox, bütün "Qarabağ klanı"nın siyasi səhnədən gedişi ilə nəticələnəcək. Prezident İlham Əliyev isə qalib olaraq tarixə düşəcək".

## Ekoloji qanunvericiliyin tələblərinin pozulmasına görə 190 akt və protokol tərtib olunub

Yanvarın 16-dan 31-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühitin Mühafizəsi Departamentinin əməkdaşları tərəfindən ölkə ərazisində ekoloji qanunvericiliyin tələblərinə riayət olunmasını yoxlamaq məqsədilə araşdırma aparılıb. Departamentdən AZƏRTAC-a bildirilib ki, araşdırma zamanı hüquqi və fiziki şəxslər tərəfindən atmosfer havasının, su və torpaq ehtiyatlarının, yerin təkinin, fauna və floranın mühafizəsi, o cümlədən ətraf mühitə qanunsuz məişət və istehsalat tullantılarının atılması sahəsində yol verilmiş qanun pozuntularına görə 190 akt və protokol tərtib olunub, nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 20 müddətli "məcburi göstəriş" verilib.

Ümumilikdə, 61 iş üzrə 44050 manat məbləğində inzibati qaydada cərimə tətbiq edilib, ətraf mühitə dəymiş ziyana görə 37 iş üzrə 24429,59 manat məbləğində iddia qaldırılıb, ətraf mühitə tullantıların atılmasına və axıdılmasına görə hüquqi və fiziki şəxslərə qarşı 363 iş üzrə 61379,77 manat məbləğində ödəmə tətbiq edilib. Tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına 21, icra qurumlarına 3 iş göndərilib.




# ABŞ-ın yeni milli müdafiə strategiyası: beş əsas təhlükə və təhdidlər

***Amerikanın müdafiə naziri Ceyms Mettis yanvarın 19-da ölkəsinin yeni milli müdafiə strategiyasını təqdim edib. Sənəd tam olaraq açıqlanmayıb, ancaq onun başlıca müddəaları barədə müdafiə naziri məlumat verib. Ekspertlərə görə, Vaşinqtonun yeni müdafiə strategiyası ziddiyyətli məqamlarla doludur. Burada dünya üçün beş təhlükə göstərilir. Bir sıra ölkələrə qarşı sərt addımların atıldığı vurğulanır. Lakin bütün bunlar hadisələrə birtərəfli yanaşmaqla və obyektivliyi gözləmədən edilir. Məsələn, sənəddə Ukrayna və Gürcüstanın adı çəkilir, Azərbaycana qarşı olan hərbi təcavüz xatırlanmır. Ölkənin ərazi bütövlüyünün təmin edilməsi zərurəti vurğulanmır. Bütün diqqət Amerikanın dünya ağalığını təmin etməyə yönəldilib. Mövcud geosiyasi nizamın zəiflədiyi vurğulansa da, onu saxlamaq, yaxud daha möhkəm yeni düzən qaydaları tətbiq etməkdən söhbət getmir. Bütün cəhdlər ABŞ-ın rəqiblərinin zəifləilməsi üzərində qurulub. Terrorla mübarizə isə onlardan sonra yer tutur. Bu kimi məqamlar müəyyən narahatlıq yaradır və sənədin geosiyasi mənzərəyə təsirinin analizini aktuallaşdırır.***

## Dəyişməyən iddia: yeni müdafiə strategiyasının köhnə prinsipləri

Pentaqon yanvarın 19-da Amerikanın yeni milli müdafiə strategiyasını təqdim edib. Sənəd bütövlükdə açıqlanmır, ancaq onun qısa variantı dərc edilib (bax: Summary of the 2018 National Defense Strategy: Sharpening the American Military's Competitive Edge / defense.gov). Dünyanın müxtəlif ölkələrindən ABŞ-ın yeni hərbi strategiyasına reaksiya verilib. Ekspertlər onun bir sıra aspektlərini analiz edirlər. Məsələ burasındadır ki, ABŞ son doqquz ildə ilk dəfədir ki, özünün hərbi strategiyasını hazırlayıb konkret hədəfləri göstərir. Həmin sənədin bəzi müddəaları maraq doğurur. Vaşinqtonun dünya nizamı və qlobal təhlükəsizliklə əlaqəli mövqeyi xüsusilə əhəmiyyətlidir.

Etiraf edilməlidir ki, sənəddə bir sıra obyektiv müddəalar mövcuddur. Müasir dünya nizamının xarakteristikası real mənzərəni əks etdirir. Belə ki, ABŞ-ın yeni hərbi strategiyası əks olunan sənəddə etiraf edilir ki, dünya nizamı müəyyən dərəcədə sarsılıb. Sənəddə yazılır: "...Biz güclənən qlobal nizamsızlıqla qarşı-qarşıyayıq. Bu nizamsızlıq çoxdan mövcud olan və qaydalara əsaslanan dünya nizamının zəifləməsi ilə xarakterizə olunur. Bu da öz növbəsində yaxın perspektiv üçün daha çox dolaşıq və təlatümlü təhlükəsizlik mühiti yaradır" (bax: əvvəlki mənbəyə).

Bizcə, doğru qiymətləndirmədir. Çünki bütövlükdə dünyanın böyük güclərinin birbirinə inamı minimuma enib, BMT-nin müdaxiləsi səmərə vermir, müxtəlif regionlarda silahlı münaqişələr və terror getdikcə daha da güclənir, nüvə silahı ətrafında ziddiyyətlər artır, diplomatik fəaliyyətlə qlobal problemləri həll etmək imkanları azalır və s. Bəs bütün bunlar nələrdən qaynaqlanır? Necə oldu ki, dünya belə bir həssas məqama gəldi və uzun müddət işləyən nizamlama qaydaları böhran vəziyyətinə düşdü?

Təəssüf ki, sənəddə bu suallara cavab yoxdur, yaxud dolayı yolla Vaşinqton başqalarını günahlandırır. Elə təsəvvür yaratmağa çalışırlar ki, ABŞ-ın bunlarda heç bir qəbahəti yoxdur. Əksinə, bütün dünyanı Amerikanın milli təhlükəsizlik maraqlarına uyğun yenidən düzənə gətirmək gərəkdir. Bu prinsipə tabe olmayanı ABŞ cəzalandıra bilər. Bu bağlılıqda sənədi təqdim edən müdafiə naziri Ceyms Mettisin təhdid xarakterli fikirləri ekspertlərin diqqətindən yayınmayıb. O deyib: "...Bizim diplomatlarla işləyin..., axı sizlər Müdafiə Nazirliyinə tuş gəlmək istəmirsiniz" (bax: əvvəlki mənbəyə). Bu cür ritorika yeni müdafiə strategiyasının aqressiv notlara kökləndiyini göstərir. Analitikləri də məsələnin məhz bu tərəfi narahat etməkdədir.

Həmin kontekstdə sənəddə Amerika üçün beş əsas təhlükənin ifadə edilməsi diqqəti çəkir. Bunlar Çin, Rusiya, Şimali Koreya, İran və terror qruplarıdır. Onlardan Çin və Rusiya amerikalılar üçün daha həssas hesab olunur (bax: əvvəlki mənbəyə). Bu iki ölkə hərbi gücünü sürətlə artırır, raketdənmüdafiə imkanlarını genişləndirir və kiber potensialını artırır. Çin Asiya-Sakit okean hövzəsində lider olmağa çalışır, Rusiya isə Avrasiya məkanında dominantlıq etməyə cəhd göstərir. Moskva qonşularına hücum edir, NATO-nu içəridən silkələyir, Avropaya təzyiqlər göstərir, Yaxın Şərqə müdaxilə edir. Bu səbəbdən də C.Mettis vurğulayıb ki, indi Vaşinqton üçün supergüclər arasındakı rəqabət terrorla mübarizədən daha aktualdır.

Həmin məqam çox düşündürücüdür. Çünki bu fikir onu ifadə edir ki, ABŞ artıq terrorla deyil, özünə rəqib saydığı güclü dövlətlərlə savaşacaq. O cümlədən Çin və Rusiya ilə bütün sahələrdə rəqabət daha sərt və amansız məzmun kəsb edə bilər. Şübhə yoxdur ki, belə bir vəziyyət qlobal miqyasda təhlükəsizliyə ciddi təhdidləri meydana çıxara bilər. Yeni münaqişə ocaqları ortaya atılar. Bunun üçün isə yeni-yeni radikal terror qrupları formalaşdırıla bilər. Təbii ki, belə tendensiyalar dünya üçün ciddi təhlükələr yarada bilər.

## Dünya nizamının taleyi: tunelin sonu görünmür

Deyilənlərin fonunda sənəddə Rusiya və Çin "təftişçi böyük dövlətlər" termini altında eyniləşdirilib (bax: əvvəlki mənbəyə). Yəni, hər iki ölkə mövcud dünya nizamı qaydalarını təftiş edərək öz xeyirlərinə uyğun dəyişdirməyə çalışırlar. Onu vurğulayaq ki, Pekindən və Moskvadan bu ittihamlara dərhal cavab verilib. Hər iki ölkə söhbətin heç bir təftişçilikdən deyil, əksinə, mövcud dünya nizamını qorumağın vacibliyindən getdiyini vurğulayıb. Xüsusilə Çin siyasi dairələri Pekinin beynəlxalq hüquqi qaydaların möhkəmlənməsini və indiki dünya nizamının saxlanmasını daha doğru saydığını bəyan edir.

Lakin Amerika bunlarla kifayətlənmir. Şimali Koreya və İran kimi "üzdəniraq" dövlətlər dünya üçün təhlükə olaraq qalırlar. Onların hərəkətləri regional və qlobal sabitliyə təhlükə yaradır. Onlar həm öz xalqlarını istismar edir, həm də ideologiyalarını xaricə yaymağa çalışır, üstəlik, nüvə silahı istehsal etmək strategiyasından imtina etmirlər. Bu iki ölkə kimyəvi və bakterioloji silahlara da malikdirlər.

Ayrıca, İslam respublikası Yaxın Şərqdə sabitliyə olan ən böyük təhlükədir. Bu səbəbdən onunla daha sərt və ciddi mübarizə aparmaq gərəkdir. Nəzərə almaq lazımdır ki, İran terror təşkilatlarını (məsələn, "Hizbullah" hərəkatını) maliyyələşdirir. Deməli, İranla mübarizə həm də terrorla savaşdır. Buradan sənəddə nəyə görə terror qrupları ilə mübarizənin Çin, Rusiya, Şimali Koreya və İran "təhlükələri"ndən sonraya salınması aydın olur.

Bunların əsasında sənəddə iki nəticə xüsusi vurğulanır. Birincisi, Amerikanın hərbi üstünlüyü zəifləyir və rəqabət imkanları məhdudlaşır. Bu, quruda, dənizdə, havada, informasiya sahəsində özünü göstərir. İndi sürətli texnoloji inkişaf büdcəni çox yükləyir, nəticədə, arzu olunanı həyata keçirmək hər zaman mümkün olmur. Sonucda Amerikanın liderlik imkanları əvvəlki dövrlərə nisbətən müəyyən dərəcədə azalmış kimi görünür.

İkincisi, Amerika artıq təkbaşına deyil, öz müttəfiqləri ilə birgə və onlar vasitəsi ilə hərəkət etməlidir. Yaxşı ideyalar heç də həmişə hərbi cəhətdən daha güclü olan ölkədən gəlmir. İndi müttəfiqlər də çox səmərəli təkliflər verə bilirlər. Bu gəlişigözəl sözlərin arxasında, bizcə, incə bir məqam dayanır. Görünür, ABŞ müxtəlif regionlarda olan müttəfiqlərini irəli verərək onların üzərindən əsas rəqibləri ilə mübarizə aparmaq praktikasını genişləndirmək niyyətindədir. Çünki artıq Vaşinqtonun bu taktikadan istifadə etdiyini düşünürük. Bunun bariz nümunəsi kimi Yaxın Şərqdə baş verənləri göstərmək olar.

Beləliklə, ABŞ-ın yeni müdafiə strategiyası nəinki mövcud problemləri həll etməyə imkan vermir, hətta yeni çətinliklərin yaranmasına da aparıb çıxara bilər. Əgər Amerika dünya liderliyini sənəddə vurğulanan üsulla təmin etməyə çalışarsa, yeni müharibələrin yaranması qaçılmaz olacaq. Bu, kifayət qədər təhlükəli yoldur.

Bundan başqa, gözləmək olar ki, ABŞ Çinlə bağlı hansısa münaqişəni yaradacaq. Bəlkə də bu səbəbdəndir ki, Çin siyasi və hərbi dairələri Rusiyaya Amerikaya qarşı birgə duruş göstərməyi təklif edib. Pekin vəziyyətin getdikcə daha da gərgin hala gələcəyini və nə kimi nəticələr verə biləcəyini yaxşı anlayır.

Məsələ yalnız böyük dövlətlərlə məhdudlaşmır. Sənəddə Ukrayna və Gürcüstan kimi ölkələrin də adı çəkilir. Moskvanın onlara qarşı atdığı addımlar analiz edilir və qınanılır. Həmin addımları Vaşinqton təhlükəsizliyə təhdid hesab edir. Ancaq yenə də Ermənistanın işğalçılığından bəhs edilmir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi kontekstində fikir bildirilmir. Bunlar onu göstərir ki, ABŞ-ın yeni milli müdafiə strategiyası həm də ikili standartlara uyğun hazırlanıb. Belə bir strategiyanın dünya nizamına səmərə verəcəyini gözləmək çox çətindir.

**Newtimes.az**

# “REAL” deyilən bir qurumun yoxluğu əsl reallıqdır

***İllərlə özlərini çox fərqli bir ampluada təqdim etməyə, güya ki, daha üstün bir model sırımağa çalışan “real”çıların “reallıqları” artıq ictimaiyyət üçün heç də gizli deyil. Bu qurumun da fəaliyyəti digər satqınların fəaliyyətindən heç də fərqlənmir, məqsəd və məramlar, hətta niyyətlər də eynidir. Müxalifət düşərgəsinin fəaliyyətindən heç nə ilə fərqlənməyən “REAL” hərəkatı da müxalifətin ənənələrinə sadiqdir, biri digərinin eyni və təkrarıdır. Fəliyyətləri yalnız xəyanət üzərində köklənmişlərin missiyası xarici anti-Azərbaycan qüvvələrə xidmətdən ibarətdir. Bu qurumun da fəaliyyəti müxalifət düşərgəsində təmsil olunan digər partiyalar kimi özünü təkcə Azərbaycan ictimaiyyətinə deyil, həm də xarici qüvvələrə sırımaq və siyasi dividendlər əldə etməkdir.***

Milli maraqlar, dövlətçilik əleyhinə fəaliyyətləri sayəsində Azərbaycan ictimaiyyəti və xalq arasında heç bir dəstəyə malik olmayan müsavatçıların, cəbhəçilərin, “real”çıların və digər müxalifətçilərin xaricə üz tutmaqdan, onların maddi dəstəyinə sığınmaqdan başqa çarələri qalmayıb. Onsuz da hakimiyyətə sonsuza qədər haqqı çatmayan və bunu yaxşıca dərk etdikləri üçün hakimiyyətə iddialı belə olmayanların təsəllisi əcnəbi ağalarının qulluğunu yerinə yetirməklə, qrant əldə etməkdir. Müxalifət qurumlarının ictimai dəstəkdən məhrum olduqları təqdirdə xarici qüvvələrin dəstəyinə bel bağlamaları, anti-Azərbaycan təyinatlı qrantlara əl açmaları əsl rəzalətdir. Bu rəzaləti qəbul edənlər sırasında “REAL” hərəkatı da var və xəyanətkarlıqları ilə heç də digərlərindən geri qalmırlar. Əksinə, sanki bu xəyanət yarışmasında birincilik uğrunda mübrizə gedir və “realçılar” da öz mövqelərini möhkəmləndirməyə çalışırlar. Əcnəbi havadarlara yarınmağa çalışanlar, ölkə daxilində etiraz aksiyaları keçirməklə də olsa, özlərini göstərir və çarəsizlik təzahürü olan boykot qərarına “realçı”ların da qoşulması digərlərindən heç də fərqlənmədiklərini təsdiqləyir.

## Müxalifətin boykot bəhsə-bəhsi

Növbədənkənar prezident seçkisinin keçirilməsi ilə bağlı qərar müxalifət düşərgəsinin digər qurumları kimi “REAL” hərəkatını da çaşqınlıq içərisində qoyub. Görünür, “realçılar” da əcnəbi ağalarının qarşısında qrantlar müqabilində boyunlarına götürdükləri öhdəliklərin yerinə yetirilməsi üçün zamanın daralmasından təşvişə düşüblər. Seçkilərə qədər olan müddət ərzində, fəaliiyətlərini sığortalamaq üçün, onlar da boykot qərarını seçiblər. Bundan əvvəl Demokratik Qüvvələrin qondarma “Milli Şura”sının boykot qərarını bilirdik. Dəfələrlə Müsavatda da səslənən bu qərar bizə tanışdır. Əslində, hər seçki öncəsi məğlubiyyti dolayısı ilə etiraf edən bu ifadə geniş ictimaiyyətə bəllidir. Bu, müxalifət tarixində birinci və məğlub strategiyalarını nəzərə alsaq, görünür, sonuncu da deyil. Amma bu dəfə müxalifət düşərgəsində təmsil olunanların bir-birinin ardınca bu qərarı qəbul etmələri, bu eyforiyaya “realçı”ların da qoşulması başqa bir məqamdan xəbər verir. Deyəsən, müxalifətçi ənənəsinə daxil olan “boykot” ifadəsi ümumi məfhuma çevrilib və hamısı bu ifadədən istifadə etməyi özünə borc bilir.

Amma “REAL”da boykot məsələsi, heç də göründüyü kimi, sadə deyil və fikir ayrılıqları ilə müşayiət olunur. Məhz buna görə də, “REAL”-da çaxnaşma yaranıb. Belə ki, İlqar Məmmədov seçkilərə boykot qərarı verdiyi halda, hərəkatın icraçı katibi Natiq Cəfərli bu qərarın əleyhinədir. Bir sözlə, ikitirəlik yaranıb. Cəfərli iddia edir ki, niyə biz “Milli Şura” kimi düşünməliyik? Amma görünür, İlqar Məmmədovun xarici qüvvələrlə əlaqələrini icraçı katib nəzərə almır, yaxud dərk etmək istəmir ki, hərəkatın rəhbərinin ixtiyarı heç də öz əlində deyil. Ya da Cəfərlinin fikirlərindən asılı deyil və o, bir buyruq quludur, necə əmr verilərsə, hansı ssenari tərtib olunarsa, buna müvafiq də hərəkət etmək məcburiyyətindədir. Daha doğrusu, özü özünü bu məcburiyyət qarşısında qoyub.

Hadisələrin gedişi, onu deməyə əsas verir ki, “REAL” bir qurum kimi hələ də özünü təsdiq edə bilmir. Dəfələrlə yığıncaq və qurultay keçirməyə cəhd etsə də, buna nail ola bilməyən hərəkatın qurum kimi fəaliyyəti də şübhə doğurur. “REAL” deyilən bir qurumun yoxluğu əsl reallıqdır. Dekabr ayında Müsavatın qərargahında qurultay keçirmək qərarları baş tutmayan “realçı”ların bu hərəkata partiya adı vermək cəhdləri də fəaliyyətləri qədər gülünc səslənir. Hətta öz qərargahından istifadə etməyə icazə verən müsavatçıların “realçı”ları öz tərəflərinə çəkmək niyyətləri və cəhdləri də təkzib edilə bilməz. Öz qərargahını, qeyri-qanuni olsa da, belə istifadəyə vermək fikri bu niyyəti açıq-aşkar ortaya qoyur. Qurultayın baş tutmaması, “realçılar” üçün uğursuz olduğu kimi, müsavatçılar üçün də arzuolunmaz oldu. Belə ki, onların “REAL”ı öz tərəlinə çəkmək niyyəti alınmadı.

Hazırkı vəziyyətdə “REAL”ın “Milli Şura”nın ardınca boykot qərarı verməsi, onu göstərir ki, müsavatçıların bacarmadıqlarını cəbhəçilər reallaşdırmağa çalışır və “realçı”ları öz tərəfinə çəkməyi planlaşdırırlar. Bəlkə də hardasa buna müəyyən qədər nail ola biliblər də. Görünür, Natiq Cəfərlinin hay-küy salması səbəbsiz deyil və daim uğursuzluqları ilə seçilən “şura”nın ardınca getmək niyyətində deyil. Amma Cəfərlinin etiraf etməsi yerinə düşərdi ki, “şura” üzvləri kimi “realçı”lar üçün də seçki prosesi, siyasi mühit ən böyük şans hesab olunur və onlar da əcnəbilərə yarınmaq üçün əldən- ayaqdan gedirlər.

***İnam HACIYEV***




# “Nar” Bakı Metropolitenində LTE xidmətini təqdim etdi

***Abunəçilərə yüksəkkeyfiyyətli rabitə xidmətinin göstərilməsi məqsədilə aparılan təkmilləşdirmə işləri çərçivəsində “Nar” Bakı Metropoliteninin stansiyalarında 4G (LTE) xidmətini təqdim edib. LTE-Advanced xidmətinin təqdimatı, bölgələrdə 4G şəbəkəsinin təmin edilməsi və şəbəkənin daha da yaxşılaşdırılması istiqamətində atılmış digər addımlardan sonra metro stansiyalarının platformalarında da LTE şəbəkəsindən istifadənin mümkünlüyü “Nar” abunəçilərinin üzəyincə olub.***

Qeyd edək ki, “Nar” 4G şəbəkəsi Bakı Metropoliteninin fəaliyyətdə olan bütün stansiyalarının platformalarında (“Sahil” istisna olmaqla) təmin edilib. Artıq “Nar” abunəçiləri metro stansiyalarında saniyədə 225 Mbps-dək olan mobil internet sürətinin üstünlüklərindən faydalanmaq imkanı qazanacaqlar. “Nar” öz şəbəkəsinin genişləndirilməsi, ən yeni və innovativ texnologiyaların tətbiqi, xidmət və məhsulların təqdimatı istiqamətindəki genişmiqyaslı işləri davam etdirəcəkdir.

“Nar” LTE şəbəkəsi haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

“Azerfon” şirkəti 21 mart 2007-ci ildə “Nar Mobile” ticarət nişanı ilə fəaliyyətə başlayaraq, qısa bir müddətdə, Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə, ilk dəfə olaraq, 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən “HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.



# Müxalifətin “yol əhvalatı”

**AFƏT**

***Növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı verilən qərar müxalifət daxilində elə bir çaxnaşma salıb ki, gəl görəsən. Biçarələr başlarını itiriblər desəm, az olar. İlin sonuna qədər planlaşdırdıqları işlərin birdən-birə alt-üst olması qurduqları planların darmadağın olmasına, xəyallarının parçalanmasına gətirib çıxardı. Hansı addımı atacaqları belə özlərini çaş-baş salıb. Əlacları ona qalıb ki, bir yerə yığılıb görsünlər ki, dərdlərinə nə əlac qılırlar?!***

Zalımlar öz aralarında da dil tapa bilmirlər ki, heç olmasa, biri deyəni o biri eşitsin. Axır ki, yenə də Əli Kərimli söz alıb başladı çıxışına, nə başladı:

- Bu gün bizim bura yığılmağımızın bir məqsədi var. Təsəvvür edin ki, ölüm-qalım məsələsidi. Biz bir yola çıxmışıq, bu yolda gərək bir olaq. Amma sizə onu da deyim ki, sizinlə işləmək çox çətindir. Sizdən adam olmayıb, olmayacaq da. Götürək elə bugünkü yığıncağımızı. Sizə nə qədər demək olar ki, bu xırda-xuruş, cılız söz-söhbətlərdən əl çəkin, nə görmüsünüz boş-boş danışıqlardan, nəyinizə lazımdı axı? Hə, “kstati” yadıma bir şey düşdü. Seçkilər gəlib kəsdirib qapının ağzını, pul da yox. Hətta ora-bura qaçmaqçun “transport”a yanacaq doldurmağa da bir qəpiyimiz yoxdu. Hansınızı bir iş dalınca göndərirəmsə, yarıtmırsınız. Götürək elə mənim müavinim Gözəl Bayramlını. Neçə vaxt əvvəl qurduğumuz planı aparıb Gürcüstanda batırdı. Soruşanda ki, niyə belə edirsən, üzümə qızıl-qırmızı durur ki, mən də sizin maraqlarınızçun çalışıram, daaa. Əgər buna maraq demək olarsa? Siz bir işə baxın, məni hələ belə zibilə salan olmamışdı. Başdan-ayağa ziyan içindəyik. Bu tərs xarici havadarlarımızdan canımı qutarsaydım, dərdim olmazdı. Axır vaxtlar göz verirlər bizə, işıq vermirlər, ay kişilər. Heyif fikirlərimdən. Özümüz işləməliyik, öz qüvvəmizlə, amma öz aramızdı, hansı qüvvəyələ? Bəylər, keçirik o biri məsələyə. Mənim narahat edən odur ki, bizim bu saat işimizin “razqar” vaxtıdır. Okeanın o tayından da yığıblar məni boğaza. Bir çarəmiz ona qalıb ki, “boykot” edək və mitinqlərə başlayaq. Elə buna görə deyirəm, ölüm-qalım məsəlidi.

“Boykot-mitinq” sözünü eşidənlər hərə bir yerdən danışmağa başladı. Kimisi əlavə qüvvə istədi, təkbaşına öhdəsindən gələ bilməyəcəklərini dilə gətirdi. Sədarət kürsüsündə oturanlarsa, ancaq bir-birilərinə baxmağa başladılar ki, hansı pulla əlavə qüvvə toplasınlar?! Pul da yoxdu axı. Əlacları ona qalıb ki, ancaq sosial şəbəkələrdə oturub boş-boş çıxışlar etsinlər, ağızlarına gələni yazsınlar. Kompüterdən bir az başı çıxanlarsa, ağıllarına gələn şəkilləri kollaj edirlər ki, guya özlərini bir iş görən kimi göstərsinlər. Amma bunun da heç bir faydasının olmayacağına da, ən azından, öz adları kimi əmindilər. Bundan əvvəlki əndrəbadi, iflasa uğrayan yarıtmaz “praktikaları” kimi...

# Demokratik islahatlar yeni uğurların əldə olunmasına xidmət edir

## *Azərbaycan son 14 ildə insan hüquq və azadlıqlarının təmini sahəsində mühüm nəticələr əldə edib*

***Hüquqi və demokratik dövlət quruculuğu prosesində inamla irəliləyən Azərbaycanda insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində bir sıra qanunvericilik aktları qəbul edilib, Prezident tərəfindən müvafiq fərmanlar imzalanıb. Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Konstitusiyasında insan azadlıqları, müdafiəsi, təhlükəsizliyi və sosial-məişət problemlərinin həlli ilə bağlı dünyanın bütün demokratik ölkələrinə nümunə sayıla biləcək müddəalar əksini tapıb. Konstitusiyanın 25-ci maddəsinin III bəndinə görə, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.***

Konstitusiyanın 44-cü maddəsinə əsasən, "Hər kəsin milli mənsubiyyətini qoruyub-saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz". Eyni zamanda, Əsas Qanunun 45-ci maddəsində deyilir: "Hər kəsin ana dilindən istifadə etmək hüququ, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz".

Konstitusiyanın 47-ci, 48-ci, 49-cu və 58-ci maddələrində Azərbaycan Respublikası ərazisində yaşayan şəxslərin "Fikir və söz azadlığı", "Vicdan azadlığı", "Sərbəst toplaşmaq azadlığı" və "Birləşmək hüququ" təsbit edilmişdir. Həmin müddəalarda şəxsin etnik mənsubiyyətindən asılı olaraq, hər hansı bir məhdudiyyət nəzərdə tutulmamışdır. Ulu Öndər Heydər Əliyev müəllifi olduğu konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun və tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Dahi Öndərimiz Heydər Əliyevin apardığı siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Ulu Öndər demokratik-hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb.

### Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi uğurla həyata keçirilir

Ölkəmizin beynəlxalq təşkilatlarla ikitərəfli səmərəli əməkdaşlıq sahəsində qurduğu əlaqələr insan hüquq və azadlıqlarının təmini məsələsində xüsusi önəm verilir. 2006-cı il noyabrın 14-də qəbul olunmuş "Avropa Qonşuluq Siyasəti" çərçivəsində Avropa İttifaqı və Azərbaycan arasında Fəaliyyət Planına demokratiyanın inkişaf etdirilməsi, insan hüquqları və əsas azadlıqların təmini, eləcə də, qanunun aliliyinin gücləndirilməsinə dair tədbirlərin daxil edilməsini göstərmək olar. Digər tərəfdən, Avropa İttifaqının bu fəaliyyət planının icrasının dəstəklənməsinə yönələn 2007-2010-ci illər üçün "Azərbaycan üzrə Milli İndikativ Proqramı"nda insan hüquqları sahəsində konkret əməkdaşlıq istiqamətləri müəyyən edilmişdir. "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı"na əsasən, Azərbaycan Respublikasının icra hakimiyyəti orqanları, məhkəmələri və Baş Prokurorluğu normativ-hüquqi aktların tətbiqi zamanı insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarəti gücləndirmişlər. Həmçinin, Fəaliyyət Planının II hissəsində nəzərdə tutulmuş vəzifələrin icrası məqsədilə BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış müvafiq qurumları ilə, həmçinin, Avropa Şurası, ATƏT və digər beynəlxalq qurumlarla əməkdaşlıq sahəsində tədbirlər görülmüş, çoxsaylı birgə proqramlar uğurla reallaşdırılmışdır. Eyni zamanda, Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşmış komitələrinə verilən hesabatlarının hazırlanması işinə hüquq müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları cəlb olunmuşlar.

Azərbaycan son 14 ildə insan hüquq və azadlıqlarının təmini sahəsində mühüm nəticələr əldə edib. Ümummilli Lider Heydər Əliyevin strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir.




### İnasan hüquq və azadlıqları tam təmin olunur

Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan hüquq və azadlıqların demokratik konvensiyasını dünyanın qabaqcıl ölkələrinin konstitusiyaları ilə müqayisə etsək, üstün nəticələr əldə etmək olar. Belə ki, ABŞ Konstitusiyasında insan hüquq və azadlıqlarına liberal münasibət öz əksini tapıb. ABŞ Konstitusiyasının "Hüquqlar haqqında Bill"inə görə, ABŞ Konstitusiyasında dəyişikliklər edilmişdir. Hələ 1791-ci ildə ABŞ Konqresi tərəfindən ratifikasiya edilmiş sənədə əsasən, 7 düzəliş, bilavasitə, insan hüquq və azadlıqlarına aiddir. Almaniya Konstitusiyasında göstərilir ki, insanın şərəf və ləyaqəti toxunulmazdır. Bu ölkənin əsas qanununda vətəndaşların şəxsi, siyasi hüquq və azadlıqları ilə yanaşı, geniş sosial-iqtisadi və sosial-mədəni hüquqları da təsbit olunmuşdur. Fransa Konstitusiyasında insan hüquq və azadlıqlarının müdafiəsinə Konstitusiya Şurası nəzarət edir. Fransada digər nəzarət formaları vətəndaşların şikayətləri və digər yurisdiksiyalı orqanlar tərəfindən həyata keçirilən nəzarət formaları mövcuddur. Yaponiya Konstitusiyasında əsas yeri insanların təbii hüquqlar konstitusiyası dövlət tərəfindən təminat verilməsi şəxsiyyətinin hüquq və azadlıqlarının həyata keçirilməsi cəmiyyətin rolu ilə əlaqələndirilir. Yaponiya Konstitusiyasında ənənəvi siyasi hüquqlarla yanaşı (seçki hüququ, birləşmə hüququ, yığıncaqlar, söz, mətbuat azadlığı və s.) digər siyasi hüquqlar da təsbit olunur. Yaponiya Konstitusiyası internet saytda göstərilir ki, xalqın, dövlətin vəzifəsi şəxslərini seçmək və onları vəzifədən kənarlaşdırmaq hüququ, dinc petisiyalarla müraciət etmək, qanunlarda düzəliş etmək və onların ləğv etmək hüququ, yaşamaq hüququ və digər şəxsi azadlıqlarla təminat verilir. Burada azadlıq və xoşbəxtliyə can atmaq, vicdan azadlığı hüququ, dövlətin və vəzifəli şəxslərin qanunsuz hərəkətlərindən zərərin ödənilməsi hüququ və s. digər şəxsi hüquqlar təsbit edilir. Prezident İlham Əliyev həyata keçirdiyi islahatlar nəticəsində aşağıdakı istiqamətlərdə böyük və əzəmətli uğurlar əldə olunmuşdur:

Demokratik vətəndvş cəmiyyəti, hüquqi ıə dünyəvi dövlət quruculuğu konstitusiyası;

Bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat;

Balanslaşdırılmış xarici siyasət;

Azərbaycanın milli təhlükəsizliyinin sabitliyinin və milli birliyinin təmin edilməsi;

Azərbaycançılıq məfkurəsinə əsaslanan milli-mənəvi dəyərlər, tolerantlıq və multikulturalizmin keçirilməsi;

İnsan hüquq və azadlıqlarının, humanizm prinsiplərinin ali dəyərlər kimi qorunması;

Konstitusiya nəzarət institutunun gücləndirilməsi;

Sülh, əmin-amanlıq, dinc yanaşı yaşamaq prinsipləri;

Sosial mənafeyinin yüksək quruculuğu, insanın mənafeyinin yüksək tutulması;

Konstitusiya qanunlarının möhkəmləndirilməsi bugünkü Azərbaycan reallıqlarını səciyyələndirən əsas amillərə çervilmişdir.

"Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda hüquqi-demokratik islahatlar, böyük infrastruktur layihələri və sosialyönümlü proqramlar uğurla həyata keçirilir". Bunu Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Daxili İşlər Nazirliyində 2017-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclasında çıxışı zamanı deyib. Fuad Ələsgərov respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu qeyd edib. O, eyni zamanda, aidiyyəti Dövlət Proqramlarından, Milli Fəaliyyət Planlarından irəli gələn vəzifələrin yüksək səviyyədə icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində bir sıra uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyini nəzərə çatdırıb.

Bir sözlə, birmənalı şəkildə, onu demək olar ki, bu gün Azərbaycanda insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsipi prioritet istiqamət təşkil edir. Bununda kökündə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasətin dönməzliyinin və davamlılığının ölkə Prezidenti İlham Əliyev tərəfindən təmin edilməsi dayanır.

***Fəxriyyə Mahmudova,***
***Yazı KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi yazı müsabiqəsi üçün***

TƏRS BAXIŞ

# Lalə Şövkət “malçişka”sının yanına getdi

*Yaxud siyasətbazların boykot oyunbazlıqları*

***Növbədənkənar prezident seçkilərini boykot edəcəyini deyən AXCP sədri Əli Kərimlinin ardınca, bənzər addımı “MBH”-nin “lideri” Lalə Şövkət də atıb. Belə ki, onun fikirlərini ALP sədri Əvəz Temirxan ictimailəşdirib. Lakin məsələ ondadır ki, L.Şövkət vaxtilə “malçişka” adlandırdığı Ə.Kərimlinin addımını təkrarlamaqla, dolayısı ilə ona dəstək göstərdiyini unudub.***




Ümumiyyətlə, heç bir xalq dəstəyinə malik olmayan bu kimi dağıdıcı müxalifətçi fərdlər zaman-zaman siyasi oyunbazlıqlar nümayiş etdirərək, özlərini xaricdəki ağalarının qarşısında, necə deyərlər, qiymətə mindirirlər. Çünki boykot qərarlarına görə, onlara müəyyən vədlər verilib. Misal üçün, bu gün “Milli Şura”nın seçkilərə qatılmaması sabah Cəmil Həsənlinin xaricə səfəri ilə davam edəcək. Eləcə də, L.Şövkətin də bu ərəfələrdə öz ağalarının yanına səfər edib maliyyə dəstəyi əldə edəcəyini düşünmək olar. Azərbaycan əleyhinə fəaliyyət göstərən bir sıra xarici qurumlar və fondlar artıq öz kisələrinin ağzını açıblar və onlara nökərçilik edən sözdə müxalifətçilərə şabaş paylayırlar.

**Onlar özləri-özlərini xalqdan və demokratik dəyərlərdən təcrid ediblər**

Söz yox ki, seçkilərə getməyəcək şəxslər, ilk olaraq, özlərinə inanmırlar. Daha doğrusu, ətraflarındakı beş-on nəfərlə heç bir siyasi uğura imza ata bilməyəcəklərini əvvəldən bilirlər. Hətta belə ehtimal etmək olar ki, əgər seçkilər apreldə deyil, oktyabrda da keçirilsəydi, bu siyasətbazlar həmin vaxt da müəyyən bəhanələr tapıb, seçkilərdən kənarda qalacaqdılar. Artıq bu, öncəki seçkilərdə özünü kifayət qədər təsdiqləyib. Bu baxımdan, “MBH”-nin lideri L.Şövkətin AXCP sədri Ə.Kərimli, “Milli Şura”nın sədri C.Həsənli, eləcə də, “REAL” hərəkatı kimi boykot qərarları ölkədəki demokratik seçki mühitinə zərrə qədər mənfi təsir göstərməyəcək. Əksinə, zərəri də, ziyanı da onlar çəkəcəklər. O cümlədən, xalqın bu cür siyasətbazlara heç vaxt dəstəyi olmadığı kimi, bundan sonra da olmayacaq. Çünki onlar özləri-özlərini xalqdan, demokratik dəyərlərdən təcrid ediblər.

**Rövşən NURƏDDİNOĞLU**

# Müxalifətin seçkilərlə bağlı hay-küy qaldırması özlərinin ziyanına olacaq

*Təhmasib Novruzov: “Oyuncaq kuklaya çevrilən müxalifət hələ də 1988-1989-cu illərin psixologiyasından qurtula bilmir”*



***Müxalifətin növbədənkənar prezident seçkiləri ilə bağlı hay-küy qaldırması və seçkiləri boykot edəcəyini bəyan edib, kütləvi aksiyalar keçirəcəklərini bildirmələri, onların anormal durumda olduqlarını göstərir.***

Bunlar onların iyrənc siyasətinin hələ də davam etdiyini və xalqdan uzaq qaldıqlarının növbəti sübutu sayıla bilər. Azadlıq Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov da “Səs” qəzetinə açıqlamasında, bizimlə söhbətində bildirdi ki, müxalifət düşərgəsini təmsil edən şəxslər ölkədə seçkilərin keçirilməsi zamanı bu cür yersiz hərəkətlərə əl atmaqla xarici qüvvələrə yarınmağa çalışırlar: “Dağıdıcı müxalif ünsürlər tərəfindən bu cür çağırışları son 25 ildə çox eşitmişik. Yəni boykot çağırışı, müxalifət daxilində birləşib birgə mübarizə aparmaq və s.kimi çağırışları eşitmişik və bunların da nəticəsiz olduğunun dəfələrlə şahidi olmuşuq. Məsələ burdur ki, özünü müxalifət adlandıran, amma əslində isə, müxtəlif anti-Azərbaycan qüvvələrinin əlində bir oyuncaq kuklaya çevrilən müxalifət hələ də 1988-1989-cu illərin psixologiyasından qurtula bilmir. Onlar reallığı özündə əks etdirməyən xəyalların dalınca qaçırlar. Bu gün müstəqil Azərbaycan dövlətinin inkişafını görə-görə və bu dövlətin dünya miqyasında çox qüdrətli min illik tarixi olan dövlətlərlə bərabər imic qazandığını görə-görə ölkəmizlə bağlı bu xoşagəlməz hərəkətlərə yol verirlər, çağırışlarla çıxışlar edirlər”.

T.Novruzov, onu da bildirdi ki, radikal müxalifət qüvvələrini narahat edən məsələnin digər tərəfi boş qalan ciblərini doldurmaqdır: “Yəni onları himayə edən xarici qüvvələrə yarınmaq istəyirlər. Seçkilər oktyabr ayında olacaqdısa, hardasa bunlara iyun və iyul ayları ərəfəsi müxalifətə pul veriləcəkdir ki,müəyyən tapşırıqları icarə etsinlər. Amma indi isə, seçkilər aprel ayında keçiriləcək deyə xarici qüvvələr tərəfindən müxalifətin boş qalan ciblərinin doldurulması məsələsi onlar üçün çox çətin olacaq. İndiki məqamda müxalifəti maraqlandıran ən əsas məsələ ciblərini doldurmaqdır. Yəni ki, növbədənkənar seçkinin keçirilməsi məsələsi ortaya çıxanda, müxalifətin cibinə dolacaq pulların böyük bir qismi əllərindən çıxdı. Bir sözlə, ən çox narahat edən də xarici qüvvələr tərəfindən veriləcək pulları lazımı ələ keçirə bilməyəcəklərinin təşvişidir. Bu gün həm xaricdə olan qüvvələr, həm də müxalifət təmsilçiləri çox gözəl bilir ki, bu gün Azərbaycanda Prezident İlham Əliyevə alternativ olacaq bir siyasətçi yoxdur. Çünki hər zaman xalq Prezident İlham Əliyevin yanında olub, Prezident İlham Əliyevi dəstəkləyir və dəstəkləyəcəkdir. Belə olan halda, radikal müxalifətin bu seçkiləri boykot etmək şansları sıfıra bərabərdir. Çünki müxalifət təmsilçilərinin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Müxalifətin bu cür ağır vəziyyətə düşməsinin səbəbi müxalifət partiya sədrlərinin şəxsi ambisiyalarının partiya maraqlarından daha üstün olması ilə bağlıdır. Çünki hətta müxalifətdəkilər özlərinin şəxsi maraqları üçün partiya daxilində belə biri digərini sıradan çıxarmaqdan çəkinmirlər”.

**GÜLYANƏ**

# Müxalifət bu dəfə də uduzacaq

*Onların boykot iddialarının da iflasa uğrayacağı şübhəsizdir*



Azərbaycan Prezidenti İlham Əliyevin növbədənkənar prezident seçkiləri haqqında vermiş olduğu Sərəncam dağıdıcı müxalifəti elə bir ağır-üzücü mat vəziyyətinə salıb ki, hələ də onun şokundan ayıla bilmir. Çaşqın və anlaqsız vəziyyətdə olduqlarından, bir-birini baş verənlərə görə günahlandırmağa başlayıblar. Əvvəlki seçkilərdə olduğu kimi, yenə də üzdə bir olduqlarını göstərməyə çalışsalar da, əslində, biri digərini qəbul etmək istəmir. Bu da təkəbbürdən və özləri haqqında yüksək iddiada olmalarından irəli gəlir. Guya ki, siyasi ideya baxımından yaxındırlar, amma əslində, bir-birinə tamamilə əks mövqedə dayanırlar. Onlar arasında hökm sürən dərin qarşıdurma birlik ideyalarının baş tutmasına və hədəflərinə nail olmalarına da imkan vermir. Lakin hansısa konkret situasiyalarda, bu, üzə çıxır və cəmiyyət də, bunu aydın şəkildə görür. Bununla belə, demək olar ki, müxalifətin qarşıdakı proseslərdə üzə çıxarılası, hətta virtual aləmdəki canfəşanlıqlarını real həyata gətirməyi bacaran, onları bir yerə toplaya biləcək qüvvəsi yoxdur. Əslində, müxalifətçilərin bu hərəkətləri sağlam düşüncəli insanlarçün çox sərfəlidir. Hər dəfə seçkiqabağı aciz duruma düşməyləri, əslində, mövcud hakimiyyət qarşısında özlərinin nə dərəcədə zəif olduqlarını nümayiş etdirmiş olurlar. Bunu, özləri də yaxşı dərk edirlər ki, mövcud vəziyyətləri həddindən artıq ağırdır. Sadəcə, yuxarıda qeyd etdiyimiz kimi, iddia və təkəbbür bunu etiraf etməyə imkan vermir.

**Dağıdıcı müxalifətin “vahid namizədi” olmayıb və olmayacaq**

Vaxtilə az qala səcdəgahları saydıqları Əbülfəz Elçibəyi 1998-ci il prezident seçkilərində “vahid namizəd” kimi qəbul etməyənlərin bu gün bir-birini dəstəkləyəcəkləri inadırıcı deyil. Hazırki proseslər də bunu təsdiq edir. Bu vəziyyətdə öz aralarında qəbul etdikləri “qərar”ları, “razılaşmalar”ı, hətta rayon təşkilatları arasında belə siyasi dəyişikliklərə nail olmayacaqlarını göstərir. Artıq AXCP sədri Əli Kərimlinin “boykot” qərarı ilə çıxış etməsi, partiyanın rayon təşkilatları arasında narazılıqlara səbəb olub. Hətta iş o yerə çatıb ki, narazılar seçkilərdə iştirak etmək üçün kütləvi surətdə Müsavat partiyasına transfer olmaq fikrindədirlər. Onsuz da sosial bazadan məhrum olunan Ə.Kərimli bu gedişlə daha ağır məhrumiyyətlərlə üzləşməli olacaq. Hər prezident seçkilərində onların, zorla da olsa, qəbul etdirməyə çalışdıqları “vahid namizəd”i, onsuz da, yerlərdə qəbul etmirlər və rayon təşkilatları arasında narazılıqlar daha da çoxalır. Elə bu səbəbdən də, nə imza toplaya bilirlər, nə də seçkilərdə vahid bir qüvvə kimi iştirak edə bilirlər. Bu pərakəndəliyin səbəbidir ki, xalq onları rədd edir və seçkilərdə dəstək vermir. Bu baxımdan, bu gün müxalifətin qəbul etdiyi “qərarlar”, atdığı hər bir addım həlledici məqamlarda heç bir rol oynamır. Bunun da nəticəsi müxalifət üçün ağır olacaq. Boykot qərarları iflasa uğramaqla yanaşı, seçki ilə bağlı arzu və ümidləri də iflasa uğrayacaq.

**Afət TAHİRQIZI**

## Paytaxt ərazisində silsilə oğurluq cinayətləri törədən şəxslər saxlanılıb

Fevralın 7-də gecə saatlarında paytaxtın Bakıxanov qəsəbəsində yerləşən xüsusi texniki vasitələrlə qorunan marketlərdən birindən Baş Mühafizə İdarəsinin Kompüterləşdirilmiş Mərkəzi Mühafizə Məntəqəsinə “həyəcan” siqnalı daxil olub. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Sabunçu Rayon Mühafizə İdarəsinin xidmətdə olan əməkdaşları dərhal hadisə yerinə çatıblar. Obyektə baxış zamanı mağazanın qapısının naməlum şəxslər tərəfindən sındırıldığı və oğurluğa cəhd olunduğu müəyyən edilib. Həmin cinayəti törətməkdə şübhəli bilinən, aralarında qız da olan 4 nəfərdən ibarət dəstə hadisə yerindən qaçmaq istəyərkən mühafizə polisi əməkdaşlarının çevikliyi sayəsində saxlanılaraq 13-cü polis bölməsinə təhvil veriliblər.

Bölmədə şəxsiyyətləri dəqiqləşdirilən zaman onların heç birinin yetkinlik yaşına çatmadığı müəyyən edilib. Araşdırma zamanı bu şəxslərin Sabunçu, eləcə də paytaxtın digər rayonlarında silsilə oğurluq cinayətləri törətdikləri məlum olub. Belə ki, saxlanılan şəxslərlə aparılan söhbətlər zamanı onların qrup halında 14 yanvar tarixində Sabunçu rayonunda yerləşən bir aptekdən 499 manat, eləcə də yanvarın 25-də Bakıxanov qəsəbəsində yerləşən marketdən pul və tütün məmulatları oğurladıqları məlum olub. Həmçinin bu şəxslər Yasamal, Nərimanov və Binəqədi rayonlarında yerləşən bir neçə market və aptekdən oğurluq etdiklərini etiraf ediblər.

Qeyd edək ki, saxlanılan şəxslərin Sabunçu rayonda etdikləri oğurluqlar həmin obyektlərin təhlükəsizlik kameraları tərəfindən də qeydə alınıb. Saxlanılan şəxslər barəsində toplanan materiallar prosessual qərar qəbul edilməsi və araşdırılması üçün Sabunçu Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib.

## Bacısının evindən oğurluq edən qadın saxlanılıb



Yasamal RPİ-nin 29-cu Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini evindən 20 min manat və 400 dolların oğurlandığını bildirib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, polis əməkdaşları dərhal əməliyyat-axtarış tədbirlərinə başlayıblar. Oğurluğun ev sahibinin bacısı Bahar Salahova tərəfindən törədilməsinə əsaslı şübhələr yarandığından o, saxlanılıb. Qeyd olunan faktlarla bağlı cinayət işləri başlanılıb. Araşdırmalar aparılır.

# İnsan hüquqları təsisatı

***Hüquqi, dünyəvi və demokratik dövlətin əsas funksiyalarından biri vətəndaşların hüquq və azadlıqlarını qorumaqdır. Bunun üçün dövlətin xüsusi təsisatlar mexanizmlər sistemi mövcuddur. Avropa ölkələrində insanın subyekti hüququnu qoruyan təsisatlar konstitusiya məhkəmələri, konstitusiya şuraları, ali məhkəmələr, inzibati məhkəmələr, parlamentlər, Azərbaycan Respublikasında isə Konstitusiya Məhkəməsidir.***

Qeyd edək ki, hüquqi dövlətdə qanunvericiliklə insan hüquqları arasında bağlılıq prinsipi hökm sürür. Hüquqi dövlət insan hüquqlarının qorunduğu, vətəndaşların dövlətə hörməti və etibarı, konsensusun, stabilliyin, tolerantlığın, dialoqun hökm sürdüyü şəraitdə mövcud ola bilər və uğurla inkişaf edə bilər.

İnsan hüquqları institutları, həm hüquq, həm də əxlaq, fəlsəfə və siyasət sahələrinə də daxil olur. İnsan hüquqları təsisatı daha çox siyasi-fəlsəfi mahiyyətə malikdir. "İnsan hüquqları" anlayışı liberal fəlsəfəyə aiddir. İnsan hüquqları bir dünyagörüşüdür. İnsanda ədalət, ləyaqət və vicdanlılıq, insana hörmət, cəmiyyət qarşısında da məsuliyyət hissi əsas yer tutur. İnsan hüquqları liberal demokratiya anlayışı ilə də sıx şəkildə bağlıdır və ondan ayrılmazdır. Hüquq sahəsi daim inkişafdadır, əvvəllər insanlar ən təbii olan azadlıq hüququnun əhəmiyyəti üzərində durduqları halda, indi isə sağlam və gözəl ətraf mühitdə yaşamağın əhəmiyyəti üzərində dururlar. Bununla belə, hər dövlətdə, yaxud regionda vəziyyət eyni deyildir. Avropada daha geniş sayda hüquqlar qorunduğu halda, Yaxın Şərqdə Afrika ilə Cənubi Amerikada da insan hüquqlarının vəziyyəti eyni deyildir. Belə deyə bilərik ki, demokratiya və liberalizm inkişaf etmiş sistemlərdə, klassik hüquqlar (bunlara "mülki və siyasi hüquqlar", bəzən də "təbii hüquqlar" deyilir), yəni birinci nəsil hüquqlar kateqoriyası artıq təmin edildiyindən, orada ikinci və üçüncü nəsil hüquqların qorunması üzərində dururlar. İnsan hüquqları, müasir mənada, demokratiyadan ayrılmaz bir anlayışdır. Demokratiyaya seçmə və seçilə bilmə hüquqları, cəmiyyətin necə idarə ediləcəyi də daxildir. İnsanların bir arada birləşib, siyasi cəmiyyəti yaratmalarının məqsədi azadlıqların qorunmasıdır. Fərhad Mehdiyev yazır: "İnsan hüquqları", simvolik və moda olan bir anlayış kimi görülməməlidir. Anlayış o qədər əhəmiyyətlidir ki, bir çox hüquq sahəsinə təsir göstərir. İnzibati hüquq, cinayət hüququ, cinayət prosesi, mülki və mülki proses, şəhərsalma hüququ və başqa hüquq sahələrini, insan hüquqlarını yönləndirir və təsir göstərir. Bu təsir mücərrəd deyil, konkret təsirdir. Məsələn, əgər mülki hüquqdakı tənzimləmələr, mülkiyyətçinin istifadə hüququnu ictimai mənafe olmadan məhdudlaşdırırsa, bu açıq surətdə insan hüquqlarına zidd qəbul olunmalıdır. Hüququn mənbələrini inter ali qanunlar və əsasnamələr kimi normativ aktlar təşkil edir. İnsan hüquqlarının mənbələri isə, konvensiya, müvafiq məhkəmələrin, komitələrin, Avropa Şurası Nazirlər Kabineti kimi orqanların şərh və qərarlarıdır. Habelə, hüququn ümumi prinsiplərini də bunların arasında qəbul etmək lazımdır".

İnsan hüquqları institutu, məzmun etibarilə, eyni statusa sahib olmayan hüquqları qoruyur. Belə ki, mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda, konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik hüquqlarının mahiyyəti belə tam aydınlığa qovuşmayıb. Habelə, insan hüquqları institutu, mənbə etibarilə, beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır. Konkret hüququn məzmununun doldurulması da maraq kəsb edir. Belə ki, mülkiyyət hüququnun məzmununu dolduran mülki hüquq olduğu halda, söz azadlığı kimi hüquqların məzmununu isə, fəlsəfə və siyasət elmi doldurur. Liberal fəlsəfənin bir məhsulu olan insan hüquqları institutu, dövlət tiraniyasını zəifləmək məqsədini güdürdü. John Locke`un vaxtından da əvvəl, insanlar əsas hüquqlardan biri olan azadlıq hüququ uğrunda mübarizə aparırdılar. Burada, onu qeyd etməliyik ki, insan hüquqlarının xüsusiyyətlərindən biri də budur ki, konkret kateqoriya hüquqlar arasında sıx münasibət var və bunların çoxu da, məhz azadlıq hüququ ilə bağlıdır. Dar mənada, azadlıq hüququ, həbsdə olmama və sərbəst yerdəyişmə imkanını ifadə etdiyi halda, geniş mənada, azadlıq hüququ, din və söz azadlığını, şəxsi həyatın toxunulmazlığını, yaşamaq hüququnu və bir çox başqa hüquqları da əhatə edir. Bunu ona görə qeyd edirik ki, azadlıq hüququ uğrunda başlayan mübarizə və fikir axını, zamanla digər hüquqların irəli sürülməsinə və tanınmasına gətirib çıxarmışdı. İnsan hüquqları bizi tiraniya və despotluğa qarşı qoruyur və bu qoruma avtoritar rejimlərdə bir zümrənin despotluğuna qarşıdır, demokratiyalarda isə çoxluğun despotluğuna qarşı yönəlir. Deməli, insan hüquqlarının birinci dərəcəli mənbəyi insanın özüdür. Əsasən, liberal fəlsəfənin birinci dərəcəli, bəlkə də tək meyarının insan olmasının səbəbi budur. İnsan hüquqları müxtəlif təsnifat sistemlərinə tabedir. Əsas təsnifatlardan biri, bunları bir tərəfdən, mülki və siyasi, digər tərəfdən isə, iqtisadi, sosial və mədəni hüquqlara bölməkdir. 80-ci illərdə bunlara 3-cü nəsil adlanan hüquqlar da əlavə olunub, bunlara həmrəylik hüquqları da deyilir. Lakin bu 3-cü nəsil hüquqlar haqqında fikir birliyi yoxdur, nələrin bu kateqoriyaya daxil olduğu və bunların hüquqi rejimi mübahisəlidir. İnsan hüquqlarının 3 nəslə bölünməsi, 1979-cu ildə Strasburqdakı Beynəlxalq İnsan Hüquqları İnstitutun üzvü, milliyyətçə çex olan Karel Vasak tərəfindən irəli sürülüb. Vasakın bu təsnifatı öz köklərini Avropa hüququndan aldığı kimi, Avropa dəyərlərini əks etdirirdi. Mülki və siyasi hüquqlar öz əksini Avropa İnsan Hüquqları Konvensiyasında tapıb. İqtisadi, sosial və mədəni hüquqlar isə Avropa Sosial Şərtində, bu hüquqlar üçün, xüsusi olaraq, tənzimlənən iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda göstərilib. BMT səviyyəsində iki ayrı Paktın hazırlandığını görürük. Sosial hüquqları təmin etmənin, həm ideoloji, həm də iqtisadi yönləri var, hər dövlətin də şəraiti buna uyğun olmaya bilər. Mülki və siyasi hüquqlar baxımından, vəziyyətin belə cəhəti var ki, başda SSRİ olmaqla, bəzi dövlətlərin öz təbəələrinə bütün bu hüquqları tanımaq niyyətləri yox idi. Bu səbəblə, bu Paktlara həm qeyd-şərt imkanları gətirildi, həm də hüquqlar ayrı-ayrı sənədlərdə (Konvensiyalarda) tənzimləndi. Üçüncü nəsil hüquqlara gəldikdə, bunlarla bağlı hər hansı beynəlxalq sənəd mövcud deyil. Mülki və siyasi hüquqların digər adı təbii hüquqlardır. Təbii hüquqlar, mahiyyəti etibarilə, universal hüquqlardır, insan əxlaqından ayrılmazdır və davranış, ya da inanclara bağlı deyildir. Təbii hüquqlar, qeyd olunduğu kimi, təbii hüquq məktəbinin bir məhsuludur. Bilindiyiniz kimi, təbii hüquq məktəbi, liberalizm axımının öncüsü və ilhamçısı olmuşdur. Avropada təbii hüquq məktəbinin tərəfdarları, Saint Thomas başda olmaqla, hüququn mənbəyini Allahda görürlər. Bu məktəbin sekular (dünyəvi) tərəfdarları isə, təbii hüququn mənbəyini təbiətdə görürlər. Təbii hüquq anlayışını, qanuni hüquq anlayışı ilə müqayisə etmək mümkündür. Qanuni hüquq dövlət, ya da cəmiyyət tərəfindən vətəndaşların mənfəəti üçün yaradılır. Halbuki təbii hüquqlar, dövlətin tanıyıb-tanımamasından asılı olmayaraq, özü-özünə var olan bir hüquqdur. Birinci nəsil hüquqların əhəmiyyəti ondadır ki, bunlar insanın əsas, ayrılmaz və ən vacib hüquqlarını təşkil edir. Qanuni hüquqlara isə, ikinci nəsil insan hüquqlarını, yəni iqtisadi və sosial hüquqları misal göstərə bilərik. Təbii hüquqlara misal kimi, ilk növbədə, yaşamaq və azadlıq hüququnu göstərmək olar. Birinci nəsil hüquqların bir digər adı da "klassik" hüquqlardır. Bu hüquqlar, ona görə klassik adlandırılır ki, bunlar uğrunda mübarizə 18-ci əsrin əvvəllərindən bəri daha da artmışdır. İkinci nəsil, hüquqlar baxımından da, bu məqamlara toxunmalıyıq. Təbii hüquqlardan başqa, elə amillər və hallar var ki, bunlar təmin edilmədən, birinci nəsil hüquqların həyata keçirilməsi xeyli çətin olur. Məsələn, pulu olmayan və çox kasıb bir insan üçün hərəkət (səyahət) azadlığı böyük bir məna və əhəmiyyət kəsb eləmir. Digər tərəfdən, təhsil ala bilməyən insan üçün, söz və ifadə azadlığının böyük əhəmiyyəti yoxdur. Habelə, əmək hüquqları təmin olunmayan bir insan üçün şəxsi və ailə həyatına hörmət edilmə məsələsi xəyali bir hədəfdir.Lakin ikinci nəsil hüquqların vacib xüsusiyyəti bundan ibarətdir ki, bunlar dövlət tərəfindən tanınır və mahiyyətcə ictimai olan hüquqlardır, yəni insanın cəmiyyət halında yaşamasından irəli gəlir. Bu meyarı nəzərə alaraq, bunları siyasi hüquqlarla qarışdırmaq olmaz, çünki siyasi hüquqlar hər nə qədər cəmiyyətə yönəldilmiş olsalar da, bunların məqsədi və səbəbi azadlıq hüququnu təmin etməkdir. İqtisadi, sosial və mədəni hüquqlar insanın cəmiyyət daxilində özünü ləyaqətli şəkildə inkişaf etdirə bilməsinə yönəlir. Bu səbəblə, ikinci nəsil hüquqları, hardasa birinci nəsil hüquqların dolayı təminatçısı kimi görmək mümkündür. Həqiqətən də, sosial və iqtisadi hüquqların elə bir minimum həddi var ki, o həddin altında həyat tərzinə məruz qalmış insan birinci nəsil hüquqlarından da faydalana bilməz.

İnsan hüquqları üçün nəzərdə tutulan digər bir təsnifat, bunları neqativ və pozitiv hüquqlar olaraq ikiyə bölməkdir. Neqativlik və pozitivlik yaxşı, ya da pis olma mənasında elə alınmır. Yaxşı, ya da pis hüquq, əlbəttə ki, olmaz. Burada dövlətin konkret hüquqa qarşı hansı mövqedə duracağı nəzərdə tutulur - dövlət konkret hüququ təmin etmək üçün hərəkətsiz qalıb, müdaxilə etməməlimi (qarışmamalı), yoxsa tam tərsinə, hüququ təmin etmək üçün nəsə etməlidir? Azadlıq hüququ, ya da söz azadlığı baxımından, dövlət müdaxilə etməməlidir, sizə qarışmamalıdır, onun məmuru gəlib, sizin qapınızı döyməməlidir. Lakin təhsil hüququnun, ya da mənzil hüququnun təmini üçün, dövlət məktəb açmalı, ya da kooperativ mənzillərin tikintisinə kömək etməlidir. Əvvəllər hesab olunurdu ki, birinci nəsil hüquqlar neqativ hüquqlardır, halbuki ikinci nəsil hüquqlar pozitiv hüquqlardır. Dr. Fərhad Mehdiyev yazır: "Birinci nəsil hüquqlar. Bunlara, eyni zamanda, mülki və siyasi hüquqlar, təbii hüquqlar və neqativ hüquqlar da deyilir. Bir başqa adı da əsas insan hüquq və azadlıqlarıdır. Hamısı, demək olar, eyni mənaya gəlir. Birinci nəsil hüquqların banisinin kim olduğu haqqında danışmaq çətindir. Əslində, "təbii" hüquq olduqlarına görə, bunların bir banisinin olduğu mübahisəlidir. Lakin burada John Locke`un adını qeyd etməyə dəyər. Locke bütün insanların yaşamaq, azadlıq və mülkiyyət hüququna sahib olmalarını bir "təbiət qanunu" olaraq adlandırmışdı. Ona görə bu hüquqların mənbəyi, insanın Allah tərəfindən yaradılmasındadır: necə ki, Allah insanı yaradanda, ona əl və ayaq, göz və qulaq veribsə, elə də insana bərabər hüquqları tanıyıb, insana bu dünyada həyatını ən gözəl şəkildə yaşamağa haqq verib. Birinci nəsil hüquqları belə səciyyələndirmək olar:

X Neqativdir, yəni bunların reallaşması üçün dövlətin bunlara qarışmaması kifayətdir;

X Maliyyət tələb etmir (dövlət üçün);

X Aktualdır, yəni bunların reallaşması uzun zaman tələb etmir və siyasi iradənin istəyi buna kifayət edir;

X Dəqiqdir, yəni bunların mahiyyəti açıq və aydındır;

X qeyri-siyasi və qeyri-ideolojidir;

X Kapitalistdir, çünki liberal ideologiyanın məhsuludur;

X Hüquqi olaraq qorunan və real hüquqi imkanları ifadə edir;

X Bunları qorumaq üçün beynəlxalq təminat sistemləri nəzərdə tutulur."

Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarının həyata keçirilməsinin təmin olunması, ölkədə məhkəmə islahatlarının həyata keçirilməsi, Azərbaycan Milli Məclisinin fəaliyyətinin və seçki sisteminin daha da təkmilləşdirilməsi ilə bağlı yeni müddəaların Azərbaycan Konstitusiyasında təsbit edilməsi məqsədilə 24 avqust 2002-ci il tarixində referendum keçirilməsi də dövrün zəruri tələbləri ilə şərtlənmişdir. Referendumun nəticəsi kimi, insan hüquq və azadlıqlarının daha səmərəli həyata keçirilməsi ilə bağlı bir sıra mühüm müddəalar konstitusiyada əksini tapmışdır. Həmçinin, ilk dəfə olaraq, hər kəsin pozulmuş insan hüquq və azadlıqlarının bərpası məqsədilə Konstitusiya Məhkəməsinə birbaşa müraciət hüququ tanınmışdır.

Konstitusiyada, ilk dəfə olaraq, hər kəsin onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının, bələdiyyələrin normativ aktlarından, məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada 130-cu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi, pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədilə şikayət vermək hüququ təsbit olunmuşdur.

Beləliklə, Azərbaycan Konstitusiyası hüquqi dövlətin əsas prinsipləri olan qanunun aliliyinin, ümumi bərabərliyin hüquq və azadlıqların, hakimiyyətin bölgüsü və hakimiyyət üzərində nəzarətin və prezidentlik təsisatının reallaşmasının əsas təminatçısıdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası ölkənin demokratik və sivil yolla inkişafının ən başlıca təminatıdır. Azərbaycan Prezidenti İlham Əliyev də fəaliyyətində daim Əsas Qanuna istinad edərək, respublikada ümumbəşəri demokratik dəyərlərin və hüquqi dövlət quruculuğunda qanunun aliliyinin tam təminatına çalışır. Son illərdə başlanmış məhkəmə-hüquq islahatlarının yeni mərhələsi ədalət mühakiməsinin səmərəli təşkilinə, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına yönəlmişdir. Həyata keçirilən bu islahatlar respublikamızda qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə və konstitusion normaların tam bərqərar olmasına xidmət edir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

**Səs**

Son səhifə 9 fevral

## *Sürətlə yemək qida borusunda xərçəng yaradır!*

Qida borusu xərçəngi təəssüf ki, ilk mərhələdə heç bir əlamətlə üzə çıxmır. Ona görə də xəstə yalnız vəziyyəti ağırlaşanda xərçəngə yaxalandığını anlayır. Ən çox yayılan xərçəng növləri arasında 8-ci sırada olan yemək borusu xərçəngi insanları ölümlə təhdid edir.



Tütün, siqaret və spirtli içkilər, köklük, mineral çatışmazlığı (xüsusilə də sink çatışmazlığı) kimi faktorlar və radiasiyaya məruz qalmaq yemək borusu xərçəngi riskini artırır. Ancaq alimlər bildirirlər ki, yemək borusu xərçənginin ən böyük səbəbi yanlış qidalanma vərdişləridir. Bu təhlükəli xərçəngə yaxalanma riskini artıran 5 yanlış qidalanma vərdişini təqdim edir:

**1. İçkiləri çox isti içmək**

Qaynar çay, həddən artıq isti qəhvə və isti halda içilən digər içkilər yemək borusu xərçəngi riskini 2 dəfə artırır. Qaynar halda içilən içkilər yemək borusundakı hüceyrələrin məhv olmasına və xroniki yemək borusu iltihabına gətirib çıxarır ki, bu da həmin bölgədə xərçəngin yaranmasına səbəb ola bilər.

Ona görə də çayı, qəhvəni və digər içkiləri ılıq halda içməyə diqqət edin. Mütəxəssislərin belə məsləhəti var - dodaqlar yanmırsa, içkini içə bilərsiniz.

**2. Konserv və hazır qidalardan istifadə etmək**

Hisə verilmiş balıqlar, kolbasa, sosis, konservlər - hamısı sağlamlığımızın düşmənləridir. Belə qidalarda yüksək miqdarda "benzapyren" maddəsi var. Bu da xərçəngə səbəb olan ən təhlükəli maddələrdən biridir. Onu da qeyd edək ki, manqalda bişirilən ətdə ortaya çıxan "nitrozamin" adlı kimyəvi maddə də xərçəng səbəbidir. Ən yaxşısı əti suda, buğda və ya sobada bişirməkdir.

**3. Qidaları uyğun gigiyenik şəraitdə mühafizə etmək**

Nəmli və isti mühitdə saxlanılan taxıl, fındıq, fıstıq, qoz, əncir, ərik kimi məhsullarda yaranan bəzi mikroorqanizmlər toksin ifraz edir. Bu toksinlər yemək borusu xərçənginə səbəb olur.

Buna görə də qidaları soyuducuda və sərin anbarlarda mühafizə etmək lazımdır. Yadda saxlamaq lazımdır ki, kiflənmiş qidaların üzərini təmizləyib istifadə etmək olmaz.

**4. Meyvə-tərəvəzi az yemək**

Rasionda təzə meyvə və tərəvəzlər az olduqda da xərçəng xəstəliyi riski artır. Qida menyusunda meyvə tərəvəzə üstünlük verənlərin xərçəngə yaxalnma riski 2 dəfə azalır. Xüsusilə də sitrus meyvələri xərçəng riskini azaltmağa qadirdir. Sağlam həyat üçün gündə 5 tərəvəz, 4 meyvə növündən faydalanmaq lazımdır.

Xüsusilə də pomidor, kök, ispanaq, sarımsaq, brokkoli, turp, kərəviz, gül kələm, kələm, ənginar, soğan və sitrus meyvələrini süfrənizdən əksik etməyin. Əgər gün ərzində çox meyvə-tərəvəz yeyə bilməmisinizsə, şirəçəkəndən keçirib suyunu için.

**5. Qidaları az çeynəmək**

Yeməyi kiçik loxmalarla və yavaş-yavaş yemək mədənin həzm prosesini yaxşılaşdırır. Yemək yeyərkən hər loxmanı ən az 40 dəfə çeynədiyinizdən əmin olun. Yaxşı çeynəmədən udduğunuz qidalar yemək borusu xərçəngi riskini artırır.

## 2019-cu ildə Beynəlxalq Boks Forumunun Bakıda keçiriləcəyi ehtimalı var



2019-cu ildə Beynəlxalq Boks Forumunun Bakıda keçiriləcəyi ehtimalı var. AZƏRTAC "RİA Novosti"yə istinadla xəbər verir ki, bu barədə Rusiya Boks Federasiyasının baş katibi Umar Kremlyov bildirib.

Birinci Beynəlxalq Boks Forumu bu il fevralın 1-dən 4-dək Soçidə keçirilib. Tədbirin pik nöqtəsi Murat Qassiyevlə kubalı Yunier Dortikos arasında Beynəlxalq Boks Superseriyasının (WBSS) yarımfinal qarşılaşması olub. Rusiyalı idmançı bu döyüşdə qalib gələrək IBF və WBA versiyası üzrə birinci ağır çəki dərəcəsində çempion adını qazanıb.

U.Kremlyov daha sonra deyib: "Çin və Azərbaycandan təkliflər almışıq. Bu forumu hamı bəyənib, o, hər il keçiriləcək. Çox xoşdur ki, bu, Rusiyanın təşəbbüsü olduğundan, forumun bütün hüquqları bizə məxsusdur. Fikrimcə, iyulun 22-də - Boks günü biz forumun bayrağını növbəti forumun keçiriləcəyi təntənəli şəkildə ölkəyə təqdim edəcəyik. Ehtimal var ki, Bakı forumu da fevralın əvvəlində təşkil olunacaq. Lakin Çin də yaxşı şərtlər təqdim edir. Biz hələ ki, Bakını gözdən keçirəcəyik. Bu şəhər çoxunu qane edir. Mən bütün beynəlxalq federasiyaların prezidentləri ilə, həmçinin forumun siması Gennadi Qolovkinlə məsləhətləşmişəm".

## Taekvondoçularımız Avropa çempionatının ikinci günündə 10 medal qazanıb



İstanbulda keçirilən klublararası Avropa çempionatının ikinci günündə Azərbaycanın gənclərdən ibarət taekvondo üzrə milli yığma komandasının üzvləri uğurlu çıxış edərək 10 medal qazanıb. AZƏRTAC xəbər verir ki, Türkiyə Taekvondo Federasiyası və Avropa Taekvondo İttifaqı tərəfindən təşkil edilən qitə çempionatında yığma komandanın idmançılarından oğlanlar arasında Cavad Ağayev (63 kq) və Taleh Süleymanov (73 kq), qızlardan Minayə Əkbərova (44 kq) və Sevda Pirseyidova (49 kq) qızıl medal qazanıblar. Komandanın digər üzvlərindən Xanoğlan Kərimov (48 kq), Ayaz Qənbərli (51 kq) və Ofeliya Allahverdiyeva (42 kq) yalnız finalda məğlub olaraq gümüş medala sahib olublar. Nihad Abbasov (45 kq), Bəhruz Quluzadə (48 kq) və Yaşar Məmmədli (51 kq) isə yarışı yarımfinal mərhələsində başa vuraraq bürünc medala layiq görülüblər.

## Azərbaycan milli komandası Latviya yığması ilə qarşılaşacaq

Azərbaycan milli komandasının daha bir yoldaşlıq oyunu keçirəcəyi dəqiqləşib. AFFA-nın məlumatına görə, millimiz iyunun 9-da səfərdə Latviya yığması ilə qarşılaşacaq. Qarşılaşmanın keçiriləcəyi stadion və başlanma vaxtı hələ açıqlanmayıb.

AFFA

## Parisdəki "Böyük dəbilqə" turnirində ölkəmizi 7 cüdoçu təmsil edəcək

Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" yarışı keçiriləcək. Fevralın 10-da start götürəcək turnirdə Azərbaycan cüdoçuları da mübarizə aparacaqlar. AZƏRTAC xəbər verir ki, baş məşqçi Ruslan Maşurenkonun rəhbərliyi altında 7 cüdoçumuz medallar uğrunda yarışacaq. İki gün davam edəcək "Böyük dəbilqə" turnirində ölkəmizi Tərlan Kərimov, İlqar Müşkiyev (hər ikisi 66 kq), Əbdülhəqq Rəslullu (90 kq), Bazarakça Erdenabat (48 kq), Buyankişiq Purevsuren (52 kq), İçinkorlo Munktsedev (57 kq), İrina Kindzerska (78 kq-dan yuxarı) təmsil edəcəklər. Qeyd edək ki, beynəlxalq yarışda 73 ölkədən 429 idmançı (248 kişi, 181 qadın) mübarizə aparacaq.

## De Xea maaşının artırılmasını tələb edir



"Mançester Yunayted"in qapıçısı David de Xea klub rəhbərliyindən maaşının artırılmasını tələb edib. Qol.az-ın "The Sun"a istinadən yaydığı xəbərə görə, 27 yaşlı qolkiper illik ən azı 20 milyon avro qazanmaq istəyir. Bu, baş verəcəyi təqdirdə, de Xea klubun ən çox maaş alan ikinci oyunçusu olacaq. Qeyd edək ki, "MY"da ən çox yeni transfer Aleksis Sançes maaş alır. Onun illik maaşı 30 milyon avrodur. Xatırladaq ki, de Xeanın "MY" ilə müqaviləsi 2019-cu ilin yayında başa çatır. Onunla "Real"la maraqlandığı iddia olunur.

## E l a n

32 saylı Suraxanı 3-cü Seçki Dairəsindən Abbasov Rabil Alim oğlunun adına verilmiş N-032-15/04 saylı vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**